# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 02 (3468) Cümə axşamı / 19-25 yanvar 2023-cü il Qiyməti 40 qəpik


# Sərhəddimizə avropalılar gəlir

***Avropa İttifaqı (Aİ) Ermənistana yeni missiya göndərəcək. Bu barədə diplomatik mənbələrdən bildirilib. Qeyd olunub ki, bu dəfəki missiyanın müddətinin 2 ay yox, 2 il olması nəzərdə tutulub. Məlumata görə, Avropa İttifaqının Siyasət və Təhlükəsizlik Komitəsi bu barədə layihəni ötən həftə qəbul edib. Antiböhran İdarəetməsinin Mülki Məsələlər Komitəsi layihəni bəyənib. Bildirilib ki, 200-ə yaxın avropalı mütəxəssis yeni missiyanın tərkibində təmsil olunacaq. Qeyd edək ki, ötən il oktyabrın 17-də Aİ Xarici İşlər Nazirləri Şurası Ermənistana mülki missiyanın göndərilməsi barədə qərar verib. Aİ tərəfindən belə bir addımın atılması həm zaman, həm də bölgədəki vəziyyətin yeni dinamikası ilə bağlı bir zox suallar doğurur. İlk öncə onu bildirək ki, əvvəlki missiyadan fərqli olaraq budəfəki müşahidəzilər bütün Ermənistan ərazisinə nəzarət edəcəklər.***



Həmçinin müşahidə missiyasının fəaliyyət müddəti 2 ildir - yəni son tarix 2025-ci il. Məhz bu ildə rus hərbzilərin Azərbaycan ərazisindəki fəaliyyət müddəti başa çatacaq və onlar ölkəmizi tərk edəcəklər. Rəsmi Bakının tələbləri yerinə yetirilmədiyi halda həmin vaxt Qarabağdakı ermənilərin sezim ğzğn yalnız iki variantının olduğunu açıq bəyan edib. Ya onlar Azərbaycan vətəndaşlığını qəbul edərək digər vətəndaşlarla eyni statusda qanunlarımıza tabe olmalı, ya da bu tələbi qəbul etməyənlər ölkəmizi tərk etməlidirlər. İkinci halda təxribatların yaşanacağı, bu olayların Azərbaycan-Ermənistan sərhəddinə də sıçrayacağı ehtimalı çox güclüdür. Bu səbəbdən, hazırda Ermənistanda Paşinyan hökumətinin əsas dayağına çevrilmiş, sülh danışıqlarında yalnız pozucu fəaliyyət göstərərək bölgəyə ayaq açmağa çalışan Fransanın təkidləri ilə bölgəyə daha geniş tərkibdə müşahidə missiyası göndərməyə hazırlaşan Avropa İttifaqının Ermənistanı 2025-ci il ”təhdidlər”indən qorumaq ğzğn indidən fəaliyyətə başlayıb.

*Avropa İttifaqının missiyası təmas xəttində monitorinqi uzatmaqla heç nəyə nail olmayacaq*

Ermənistandan da artıq bu məlumatlara dair ”sevincli bəyanatlar” verilməkdədir.

“İrəvan Avropa İttifaqının Ermənistana yeni uzunmüddətli müşahidə missiyası göndərmək barədə mümkün qərarına müsbət reaksiya verəcək”. Bunu Ermənsitanın xarici işlər naziri Ararat Mirzoyan parlamentdə çıxış edən zaman deyib. O söyləyib ki, Ermənistan müşahidəçilərlə geniş və konstruktiv əməkdaşlığa hazırdır. Nazir həmçinin əvvəlki missiyanın fəaliyyətini yüksək qiymətləndirərək, bunun Ermənistan-Azərbaycan sərhədində artan gərginliyin qarşısını almağa kömək etdiyini bildirib.

“Uzunmüddətli missiya” ssenarisinin məhz Fransa tərəfindən hazırlandığı şübhə doğurmur. Aİ-nin yeni missiya formalaşdırmaq və ona əlavə mandatlar vermək qərarı isə ikiüzlülük və qeyri-ciddilikdir, əvvəl əldə olunmuş razılaşmaya ziddir. Yeni missiyanın yaradılması etimad mühitini sarsıdır, şübhəsizdir ki, buna görə Azərbaycan onunla hər hansı formada əməkdaşlıq etməyi nəzərdə tutmur. Aİ bu qərarı ilə Şarl Mişelin vasitəçilik missiyasına da kölgə salmış oldu.

*Söhbət Azərbaycanla sərhəddən gedir və yəqin ki, bu missiya Azərbaycanın razılığı olmadan işə salınarsa, əks nəticə verə bilər*

**■ Əslində məsələ ilə bağlı Azərbaycanın rəsmi mövqeyi Prezident İlham Əliyev tərəfindən bir müddət əvvəl yerli media təmsilçiləri ilə görüşdə açıq şəkildə ortaya qoyuldu. Dövlət başçısının Avropa İttifaqının ”sərhəd missiyası” ilə bağlı suala dair açıqlamalarına bir daha diqqət yetirək:**

”Praqa görüşünün bir məqamı da var idi. O, ümumi kontekstin bir qədər kənarında qaldı, o da Ermənistan ərazisinə, bizim sərhədyanı bölgələrə Avropa müşahidəçi missiyasının göndərilməsi idi. Bu məsələ də çox geniş müzakirə edilmişdir. Təkliflərdən biri o idi ki, o cümlədən Azərbaycan tərəfinə də bu missiya göndərilsin. Biz buna etiraz etdik. Ancaq Ermənistana bu missiyanın göndərilməsinə razılıq verdik. O vaxt da danışıldı və orada müzakirə olundu ki, bu missiya qısamüddətli olacaq, 40 nəfərdən ibarət olacaq və cəmi iki ay çəkəcək. Mən də bununla razılaşdım. Ancaq sonra nədənsə bu danışıq, yəni, bu razılaşma pozuldu. Bu, əlbəttə ki, çox məyusedici bir məqamdır. Çünki biz ciddi adamlarıq. Burada ciddi söhbətlər gedir. Biz nəyisə razılaşdırırıqsa, hətta şifahi olsa belə, buna əməl etməliyik. Necə ola bilər? Bir müddət sonra Avropa İttifaqının yüksəkvəzifəli şəxsi demişdi ki, missiya uzadılacaq. Ondan sonra Fransanın xarici işlər naziri demişdi ki, biz missiyanı uzadacağıq. Əlbəttə, biz dərhal hərəkətə keçdik və izahat tələb etdik. Bu, nə məsələdir? Siz bunu necə uzadacaqsınız? Siz axı bu missiyanın göndərilməsini bizimlə razılaşdırmısınız. Nə üçün? Çünki bu, bizim sərhədimizin yanında olacaq. Necə ola bilər ki, bizimlə bu razılaşdırılmasın?

Dekabrın 19-da bu missiyanın müddəti başa çatmalı idi, siz də getməli idiniz öz yerlərinizə. Yəni, bu, bizi aldatmaq deməkdir. Biz bundan sonra sizinlə necə işləyək, necə müzakirə aparaq? Əgər siz bizi burada iki ay keçmədən belə xırda məsələdə, - yəni, əslində, o qədər də ciddi məsələ deyil, - aldadırsınız. Ondan sonra nə etdilər? Ondan sonra rəsmən dekabrın 19-da missiyanın fəaliyyətini dayandırdılar. Amma dekabrın 20-də yeni missiya göndərdilər. Bu da sadəcə olaraq, manipulyasiyadır. İndi yeni missiyanın nümayəndələri Ermənistandadır, orada yüksəkvəzifəli şəxslərlə görüşlər keçirirlər. Bizdə olan məlumata görə, fevral ayında böyük heyətlə yenə də oraya göndəriləcəklər. Yenə də bizimlə razılaşdırılmadan.

Bir məqamı da qeyd etmək istəyirəm. Ermənistanın ən yaxın müttəfiqi, eyni zamanda, ATƏT-in missiyasını da göndərmək fikrində idi, biz isə buna etiraz etdik. Çünki ATƏT-də belə məsələlər konsensus əsasında qəbul edilir, həll olunur. Biz əlbəttə, dedik ki, biz konsensus verməyəcəyik. Onda orada qaydalarda bir boşluq taparaq ATƏT-in bir heyətini də konsensussuz oraya göndərmişdilər. Yenə də manipulyasiya, yenə də saxtakarlıq.

▸▸ Səh. 2

MÜSAHİB

## Heydər Əliyev irsini yenidən öyrənməliyik



**Nizami Cəfərov,**
Filologiya elmləri doktoru, professor, Milli Məclisin deputatı

***Bu il - 2023-cü il may ayının 10-da Ümummilli Lider, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Son bir əsrdə bu böyük tarixi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanın tarixi bünövrələri üzərində yüksələn ictimai-siyasi, sosial-iqtisadi, maddi-mənəvi, mədəni pillələr bu gün müxtəlif istiqamətlərdə araşdırılır, öyrənilir. Heydər Əliyev irsinin 100 illik tarixini səhifələyərkən, “Bir siyasi xadim, şəxsiyyət, dövlət rəhbəri, ziyalı, bir azərbaycanlı olaraq onun verdiyi dərslərdən hansı nəticələri çıxarmalıyıq, nəyi öyrənməliyik?” - sualı hərzamankı kimi aktualdır...***

*Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizə çoxmərhələlidir*

▸▸ Səh. 2

MÜSAHİB



**Sərdar Cəlaloğlu,**
ADP sədri

■ Zəngəzur dəhlizi açılacağı və həmin yol işləyəcəyi təqdirdə Naxçıvanda çox ciddi iqtisadi yüksəliş olacaq

■ Son 30 ildə orada kimlərin əmlakı əlindən alınıbsa, kimə qarşı ağır cinayətlər törədilibsə, hamısının haqqı bərpa olunmalıdır

■ Naxçıvana gedəndə ən çox diqqətimizi çəkən məsələ insanların həddən artıq qorxu içində yaşamaları idi

▸▸ Səh. 5

GÜNÜN FOTOSU...



**Zelenskinin xanımı Davosda qəza xəbərinə ağladı**

GÜNÜN SİTATI

*“Rəsmi Moskvaya Ermənistan tərəfinin Laçın yolu ilə mina daşımasına dair məlumatlar verilib və bu məlumatlar hazırda araşdırılır”*



**Sergey Lavrov,**
Rusiyanın xarici işlər naziri

KARİKATURA



**Uşaqları öldürmək olmaz, çünki uşaqlar ölümü anlamaz**

## Kreml Qarabağdakı separatçılardan istifadə edəcək

**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

Rusiya Azərbaycan-Ermənistan münasibətlərini de-fakto 1988-ci ilin əvvəllərinə qaytarmış oldu.

▸▸ Səh. 3

STATİSTİKA



**■ 2022-ci ildə pensiya ödənişlərinə əvvəlki ilə nisbətən 7,9 faiz (361 mln. manat) çox olmaqla 4 mlrd. 948 mln. manat vəsait yönəldilib.**

Son bir ildə 23 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə 71 min pensiya təyinatı (ümumi əsaslarla yaşa görə pensiya təyinatının 80 faizi) e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.




▸▸ Səh. 6

## Molla rejiminin Azərbaycan düşmənçiliyi

## PREZİDENTİN İŞ GÜNÜ



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 18-də Davosda Litva Respublikasının Prezidenti Gitanas Nauseda ilə görüşü olub.**

Görüşdə Litva Prezidenti Gitanas Nauseda Azərbaycana ötənilki səfərini məmnunluqla xatırladı, səfər əsnasında ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına dair Prezident İlham Əliyev ilə geniş müzakirələr apardığını qeyd etdi. Prezident Gitanas Nauseda Prezident İlham Əliyevi Litvaya səfərə dəvət etdi.

Səfərə dəvəti məmnunluqla qəbul edən dövlətimizin başçısı Litva Prezidentinin Azərbaycana səfərinin ikitərəfli əlaqələrimizin inkişafı baxımından əhəmiyyətini vurğuladı.

Söhbət əsnasında regional məsələlər, Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi, həmçinin Azərbaycan ərazisində Laçın-Xankəndi yolunda baş verən hadisələr barədə fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Ermənistanın beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə Laçın yolundakı hadisələrlə əlaqədar manipulyasiya ilə məşğul olduğunu və yalan məlumatlar əsasında guya yolun bağlı olduğunu iddia etdiyini dedi. Prezident İlham Əliyev yolun mülki şəxslər və mülki təyinatlı yüklərin keçidi üçün açıq olduğunu, həmçinin Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə humanitar yüklərin sərbəst hərəkətinin təmin edildiyini bildirdi.

Prezident İlham Əliyev Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarına son qoyulmasının və kriminal ünsürlərin ərazidən çıxarılmasının vacibliyini diqqətə çatdırdı. Azərbaycan Prezidenti Ermənistan tərəfinin ötən iki ildən artıq müddət ərzində Laçın yolundan minaların, silah-sursatın və şəxsi heyətin daşınması üçün istifadə etdiyini bildirdi.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələri ilə bağlı da fikir mübadiləsi aparıldı. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə təşkil olunan Avropa İttifaqı-Azərbaycan-Ermənistan üçtərəfli formatının Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəliyə aparılması baxımından əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı önəmli rolu vurğulandı. Bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi ilə bağlı ötən ilin dekabrında Buxarestdə imzalanan Sazişin əhəmiyyəti qeyd edildi.

***



**Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda BP Qrupunun baş icraçı direktoru Bernard Luni ilə görüşü olub.**

Görüşdə BP şirkətinin Azərbaycanda uzun müddət fəaliyyət göstərdiyi vurğulandı. Azərbaycanın enerji layihələrinin yeni mərhələyə keçidi, qaz həcminin artırılması, bərpaolunan enerji layihələrində BP şirkətinin daha fəal iştirakı, mövcud layihələrin genişləndirilməsi məsələləri müzakirə olundu. Bernard Luni uzunmüddətli strateji əməkdaşlığa görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. BP Qrupunun baş icraçı direktoru Azərbaycanda əldə olunmuş böyük nailiyyətlər və sürətli inkişaf prosesləri ilə bağlı Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Dünyada böyük maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycanın qazandığı uğurların önəmini vurğulayan Bernard Luni, eyni zamanda, azad edilmiş ərazilərdə inşaat infrastrukturu sahəsində görülən genişmiqyaslı işləri qeyd etdi. Bernard Luni əminliklə bildirdi ki, Azərbaycanda əldə olunan nailiyyətlər böyük inkişaf proseslərinin başlanğıcıdır.

***

**Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Davosda "Carlsberg Group" şirkətinin prezidenti və baş icraçı direktoru Kes t`Hart ilə görüşü olub.**

Görüşdə "Carlsberg Group" şirkətinin Azərbaycandakı fəaliyyətindən məmnunluq ifadə edildi. Azərbaycanda aparılan iqtisadi islahatların biznes mühitinə müsbət təsiri qeyd olundu. Şirkətin Azərbaycanda arpa emalını 100 faiz lokallaşdırdığı, pivə istehsalında istifadə olunan arpanın emalının lokallaşdırılmasının isə yaxın vaxtlarda 100 faizə çatdırılacağı bildirildi.

Söhbət zamanı Azərbaycanda pivə istehsalında istifadə olunan arpanı emal edəcək yeni zavodun 2024-cü ildə fəaliyyətə başlamasının və ölkəmizdə yeni investisiyaların yatırılmasının nəzərdə tutulduğu vurğulandı.

Kes t`Hart Azərbaycanda "Carlsberg Group" şirkətinin fəaliyyətinə verdiyi dəstəyə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Heydər Əliyev irsini yenidən öyrənməliyik



Nizami Cəfərov,
Filologiya elmləri doktoru, professor,
Milli Məclisin deputatı

***Bu** il - 2023-cü il may ayının 10-da Ümummilli Lider, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Son bir əsrdə bu böyük tarixi şəxsiyyətin rəhbərliyi ilə Azərbaycanın tarixi bünövrələri üzərində yüksələn ictimai-siyasi, sosial-iqtisadi, maddi-mənəvi, mədəni pillələr bu gün müxtəlif istiqamətlərdə araşdırılır, öyrənilir. Heydər Əliyev irsinin 100 illik tarixini səhifələyərkən, "Bir siyasi xadim, şəxsiyyət, dövlət rəhbəri, ziyalı, bir azərbaycanlı olaraq onun verdiyi dərslərdən hansı nəticələri çıxarmalıyıq, nəyi öyrənməliyik?" - sualı hərzamankı kimi aktualdır... Azərbaycan Atatürk Mərkəzinin direktoru, filologiya elmləri doktoru, professor, Milli Məclisin deputatı Nizami Cəfərov "Həftə içi"nə müsahibəsində "Heydər Əliyev İli"nin təməl prinsiplərinə toxunub.*



## Heydər Əliyev ili

***- Prezidentin Sərəncamı ilə bu ili "Heydər Əliyev İli" kimi qeyd edirik. "Heydər Əliyev İli"nin fəlsəfəsi son bir əsrdə formalaşan hansı əsas amilləri cilalayır, əks etdirir?***

- Ümummilli Lider Heydər Əliyev gördüyü işlərin miqyasına, siyasi fəaliyyətinin məhsuldarlığına, cəsarəti və qətiyyətinə görə tarixdə çox az sayda şəxsiyyətlərlə müqayisə oluna bilər. Amma təbii ki, Heydər Əliyevin üstünlüyünü təmin edən çox amillər var. Birinci amil odur ki, Heydər Əliyev uzun müddət Azərbaycan Dövlətinə, dövlətçiliyinə, xalqına rəhbərlik edib və bu dövlətin inkişafında, ikinci mərhələdə həqiqi müstəqil dövlət kimi təqdim edilməsində fövqəladə xidmətləri olub.

Azərbaycanın azadlığı, müstəqilliyi, müstəqil Azərbaycan Dövlətinin qurulması Heydər Əliyevin adı ilə bağlıdır. Düzdür, əvvəlki dövrlərdə, Cümhuriyyət uğrunda Məhəmməd Əmin Rəsulzadə, Sovet Azərbaycanı yarandıqdan sonra Nəriman Nərimanov, Azərbaycanın müstəqilliyi üçün mübarizə aparan böyük tarixi şəxsiyyətlər - Həmid Sultanov, Qəzənfər Musabəyov, Ruhulla Axundov, Əliheydər Qarayevin böyük rolu, xidmətləri olub. Amma nə Cümhuriyyət dövründə, nə də Azərbaycanda sovet hakimiyyətinin mövcud olduğu dövrdə Vətənimizin milli iradəsini ifadə edən dövlət yaranmadı. Heydər Əliyevin hələ sovet dövründə hakimiyyətə gəlməsi və uzun müddət hakimiyyətdə olması ilə Azərbaycan Dövlətinin müstəqilliyinin elementləri, təzahürləri ortaya çıxdı. İqtisadi, siyasi, mədəni, sosial sahələrdə Azərbaycanın dirçəldilməsi, dünyada tanıdılması, daxili potensialının güclənməsi uğurla baş verdi. Sonrakı dövrdə, artıq Azərbaycan müstəqil dövlət kimi quruldu və bütün dünyaya öz müstəqil Azərbaycan adı ilə, dövlət olaraq bütün imkanları, yaradıcılıq gücü bütün dünyada təsdiq olundu.

***- Ümummilli Lider necə öyrənilməlidir, buna nədən başlanılmalıdır?***

- Doğrudur, bizim dövrümüz özünün mürəkkəbliyi ilə seçilir. Onu idarə etmək istəyən müxtəlif sionist, dini, qrup maraqları var. Belə bir vəziyyətdə Azərbaycan, həm də müəyyən istiqamətlərdə ona yönələn təsirləri hiss edir. Buna baxmayaraq, yenə də hamı Heydər Əliyevi yaxşı tanıyır, onun dünyadakı tarixi hünərini anlayır, dərk edir. Heydər Əliyevi anlamamaq, onun dəyərini bilməmək, dəyərləndirməmək, ya qəsdən, bilərəkdən ola bilər, ya da səriştəsizlikdən baş verə bilər. H.Əliyevi dərk edibanlamaq üçün çox da uzaqgörən olmaq lazım deyil. Onun xidmətləri görünən bir şəxsiyyətdir. Dünyanın işlərindən başı çıxan hər kəs Heydər Əliyevin həm Azərbaycan, həm region üçün dəyərini anlayır. O cümlədən dünyanın böyük şəxsiyyətlərindən biri kimi, onun kim olduğunu hər kəs başa düşür.

Dahiləri hər dəfə yenidən öyrənmək lazmdır. Yeni dövr, yeni zaman yarandıqca, yeni problemlər meydana çıxır. Birinci növbədə düşünürük ki, görəsən dahilər bu işi necə həll edərdilər? Dahilər bu mənada həmişə bizdən öndə gediblər. Onların düşüncələri, şərhləri, təcrübələri həmişə bizim yolumuzda işıqlı bir mühit yaradır.

Bu mənada Heydər Əliyevi yenidən öyrənmək lazımdır. Heydər Əliyev təcrübəsini nə qədər öyrənəcəyiksə, bir o qədər Azərbaycan üçün uğurlu olacaq. Azərbaycan Prezidenti də dəfələrlə deyib ki, biz Heydər Əliyevin yolu ilə gedirik. Azərbaycanın bütün düşüncə sahiblərinin hamısı Heydər Əliyevin yolu ilə gedirlər və bu yol Azərbaycanın yeganə inkişaf, tərəqqi və özünütəqdimetmə yoludur.

***- Ümummilli Liderin Qarabağın azadlığı məsələsində atdığı addımlarla bağlı nələri qeyd etmək olar?***

- Azərbaycanın qazandığı bu Zəfərin müəllifi dünya azərbaycanlılarının lideri, Azərbaycan Prezidenti İlham Əliyevdir. Heç kim üçün sirr deyil ki, İlham Əliyev məhz Heydər Əliyev yolu ilə getdiyinə görə Zəfərimiz qazanıldı. Bu yolun əsasını Ümummilli Liderimiz müəyyənləşdirmişdi. Nə idi bu yol: birinci, düşməni daim nəzarətdə saxlamaq, iqtisadi, hərbi imkanları gücləndirmək, Azərbaycan xalqının gücünü qorumaq, inkişaf etdirmək, Azərbaycanı gələcək döyüşlərə, mübarizələrə hazırlamaq. O mübarizə ki, Azərbaycan xalqı oradan qalib çıxmalı idi. Eləcə də dünyada gedən prosesləri nəzarətdə saxlamaq, Azərbaycanın nüfuzunu dünyada yüksəltmək, dünyada dostlar qazanmaq, əlaqələr qurmaq. Məhz o əlaqələr vasitəsilə dünya bizim haqqımızı tanımalı, yaxud itirilmiş torpaqlarımızda tərəfdaş olmasa da, bizə qarşı çıxmamalı idi. Bütün bu kompleks tədbirlərin görülməsi Heydər Əliyevlə başladı. Eyni zamanda bu, elə bir Zəfər olmalı idi ki, az itki verilsin. Beləliklə, erməni separatçılarına, Ermənistanın sərsəm iddialarına, onların havadarlarına qarşı aparılan peşəkar mübarizənin bünövrəsni də Ümummilli Lider qoymuşdu. Təsadüfi deyil ki, Ümummilli Liderin televiziyada səslənən bu sözlərini xatırlayırıq: "Biz Şuşaya qayıdacağıq, Kəlbəcərə, Ağdama qayıdacağıq!..". Yəni bu, Ümummilli Liderin böyük mənəvi iradəsi idi. Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən Zəfər beynəlxalq səviyyəli ustalıqla həyata keçirildi.

> "
> *Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizə çoxmərhələlidir*

***- Heydər Əliyevin elmə, ədəbiyyata, incəsənətə, milli ruhumuzun oyanışına, Azərbaycan dilinin qorunmasına, Azərbaycançılığa töhfələri nədir? Heydər Əliyevin Azərbaycançılıq siyasətini, ideyasını necə dəyərləndirərdiniz?***

- Heydər Əliyev sovet dövründən bəri həmişə elmə, mədəniyyətə, incəsənətə, şerə, ədəbiyyata xüsusi önəm verib. Yəni onun üçün xalqın milli ruhunu ifadə edən Azərbaycançılığın göstəriçiləri dildir, ədəbiyyatdır, mədəniyyətdir. Ondan sonra gələnlər elm, intellektual düşüncə, xalqın iradəsi, mənəviyyatı, əxlaqıdır. Heydər Əliyevin daim nəzarətdə saxladığı elə amillər olub ki, o, həm də səciyyəvi cəhətləri ilə ortaya çıxıb. Onlardan biri dili qorumaq, Azərbaycan dilinin yayılması üçün hər cür imkanlar yaratmaq, Azərbaycan ədəbiyyatını, mədəniyyətini, incəsənətini yaradan insanlara şəxsi qayğı göstərmək, onları qorumaq, normal fəaliyyətinə şərait yaratmaq, elmi, ədəbi, mədəni müəssisələr, təsisatlar açmaq və onların fəaliyyətini genişləndirməkdir. Eləcə də bizim müxtəlif sahələr üzrə peşəkarlarımızın dünyanın nüfuzlu müəssislərində təhsil almasını, işləməsini təmin etmək... Bütün bunların hamısı həm də Ümummilli Liderin Azərbaycançılıq uğrunda apardığı mübarizənin tərkib hissələridir.

***- "Heydər Əliyev kursu" bu gün bizi tarixi Azərbaycan torpaqlarına aparıb çıxaracaqmı?***

- Şübhəsiz. Heydər Əliyevin Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığı mübarizə çoxmərhələlidir. Heydər Əliyev ixtisas etibarilə tarixçi idi. O, heç kəsin bilməyəcəyi qədər xalqın tarixi dərinliklərinə varırdı. Biz çox ciddi müzakirələri, Ümummilli Liderin hansı ciddi məsələləri qaldırdığını görmüşük. O, kiməsə anlaşılmaz görünən və yaxud təsəvvürünün gedibçıxmadığı tarixi qatları açıb-qaldırırdı və perspektiv təhlillər verirdi.

Ona görə də şübhə etmirəm ki, Heydər Əliyevi oxuduqca görürük ki, o, Azərbaycanın tarixən mövcud olan sərhədlərini nəzərdən keçirir, gələcək perspektivdə o hüdudların, ərazilərin bərpasını ifadə edir. Həmin sahədə aparılan mübarizədə Heydər Əliyev həmişə bizə rəhbərlik edəcək.

***- Heydər Əliyev dünyanın yaddaşında necə qalacaq?***

- Heydər Əliyev Azərbaycan xalqının, dünyanın yaddaşında necə qalacağını özü çox aydın təsəvvür edib. O deyirdi: "Nə qədər ki, Azərbaycan var, mən də varam". Bu gün hər bir azərbaycanlı o sözlərin miqyasını genişləndirərək deyə bilər: "Nə qədər ki, dünya var, Heydər Əliyev də var".

*✍ Tahirə Qafarlı*

# Sərhəddimizə avropalılar gəlir

◂ əvvəli 1-ci səhifədə

Bu saxtakarlıq üzə çıxandan və biz etirazımızı bildirəndən sonra Ermənistanın ən sevimli müttəfiqi bunu ATƏT-in fəaliyyətdə olan həmsədrinin - Polşanın üstünə yıxmağa çalışırdı ki, bizim xəbərimiz yoxdur, bunu Polşa edib. Yəni, bu detalları bir az açmaqla, sadəcə olaraq, mən riyakarlığın dərəcəsini sizin və ictimaiyyətin diqqətinə çatdırmaq istəyirəm ki, biz öz haqqımızı tələb etmək üçün görün, kimlərlə və nələrlə üzləşməli oluruq. Ona görə bu növbəti missiyanın göndərilməsi, əlbəttə ki, çox xoşagəlməz bir haldır. Bu, təhlükəsizliyi artırmayacaq, əksinə, bizimlə olan bu danışıqlar formatı böyük sarsıntıya məruz qalacaq. O danışıqlar formatları ilə bağlı burada sual verildi. Minsk qrupu "rəhmətə gedəndən" sonra indi Avropa İttifaqı öz rolunu oynamağa başlamışdır və biz bunu dəstəklədik. Mən şəxsən bir neçə dəfə bu haqda açıqlama vermişdim. Demişdim ki, biz bunu təqdir edirik. Ancaq əgər bizim arxamızda belə oyunlar gedəcəksə, onda bu formatın da gələcəyi şübhə altına düşəcək.

Məsələyə Rusiyanın reaksiyası da özünü zox gözlətmədi. Kreml açıq şəkildə İrəvana etirazını bildirdi və mümkün nəticələrə hazır olmaqla hədələdi.



■ **Müttəfiq olmağımıza, bu missiyanın tam hazır olmasına baxmayaraq, Ermənistan tərəfi Avropa İttifaqı ilə danışıqlara üstünlük verir ki, orada uzunmüddətli əsasda mülki müşahidəçilər missiyası yerləşsin. Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov mətbuat konfransında bildirib.**

"Bizim Ermənistandakı mövcud vəziyyətlə bağlı çətinliklərimiz var. Erməni dostlarımız Azərbaycanla sərhəddə KTMT missiyasının yaradılmasının zəruriliyini təbliğ edəndə, biz İrəvanda keçirilən sammitdə bu missiyanın parametrləri ilə bağlı belə bir sənədi razılaşdırdıq. Amma bunu qəbul etmək mümkün olmadı, çünki erməni həmkarlar bu sənəddə Azərbaycanı sərt şəkildə qınamaqda israr etməyə başladılar. İzah etdik ki, əgər söhbət qınaqdan, ritorikadan gedirsə, mövqe təqdim etməkdən gedirsə, burada hər kəs istədiyini etməkdə azaddır. Amma əgər biz KTMT-nin missiyasını göndərmək istəyiriksə, görünür, bu, mütləq hansısa xarici əlamətlərlə, bəzi bəyanatlarla və daha çox sərt ifadələrlə bağlı deyil. Biz hələ də Ermənistan və Azərbaycan sərhədinə KTMT missiyasını göndərməyə hazırıq. Dflşt bizim müttəfiq olmağımıza, bu missiyanın tam hazır olmasına baxmayaraq, Ermənistan tərəfi Avropa İttifaqı ilə danışıqlara üstünlük verir ki, orada uzunmüddətli əsasda mülki müşahidəçilər missiyası yerləşdirilsin. Yaxşı, bu, əslində Ermənistanın haqqıdır, amma unutmaq olmaz ki, söhbət Azərbaycanla sərhəddən gedir və yəqin ki, bu missiya Azərbaycanın razılığı olmadan işə salınarsa, əks nəticə verə bilər. Bu, sərhəddə inam yaratmaq əvəzinə əlavə qıcıqlandırmalar yarada bilər", - Lavrov bildirib.

■ **Politoloq Elxan Şahinoğlunun sözlərinə görə, Avropa İttifaqının missiyası təmas xəttində monitorinqi uzatmaqla heç nəyə nail olmayacaq, əksinə Brüssel iki mənfi nəticə ilə üzləşəcək.** Birincisi, rəsmi Bakı Brüsselin bundan sonrakı vasitəçiliyinə şübhəylə yanaşacaq. İkincisi, Azərbaycan-Ermənistan sərhədinin müəyyənləşməsi uzanacaq ki, bu da əslində Avropa İttifaqının maraqlarına cavab verməməlidir.

*✍ Azad Əliyev*

# Kreml Qarabağdakı separatçılardan istifadə edəcək

**_Siyasi təhlükəsizlik məsələləri üzrə ekspert Ərəstun Oruclu "Həftə içi"nə budəfəki müsahibəsində Ermənistan baş naziri N.Paşinyanın Rusiyaya qarşı son bəyanat və addımlarını, Kremlin onun üçün "Saakaşvili" taleyi yaratmaq imkanlarını təhlil etdi. Gürcüstanın hazırda Tiflisdə ağır xəstə halda həbs həyatı yaşayan islahatçı eks-prezidenti Mixail Saakaşvilinin siyasi baxımdam belə bir duruma düşməsinin səbəblərindən danışdı, Moskvanın Qarabağda bundan sonra Putinin milyarder "desant"ı Ruben Vardanyan vasitəsilə həyata keçirmək istədiyi planları haqda proqnozlarını verdi._**



**Ərəstun Oruclu,**
siyasi təhlükəsizlik məsələləri üzrə ekspert

## Müsahib

***- Ermənistan hökumət başçısı Paşinyanın Rusiya və ayrıca KTMT-yə qarşı son bəyanat və addımlarını necə dəyərləndirirsiniz?***

- Ermənistan hökumətinin və konkret olaraq şəxsən Paşinyanın KTMT-yə qarşı verdiyi bəyanatlar Ermənistanın öz siyasətində balans qorumaq istəyindən xəbər verir. Bu ölkədə yaxşı anlayırlar ki, Rusiya bölgədə öz təsir imkanlarını bərpa etmək üçün bütün vasitələrə əl atmağa çalışır. Onlardan biri də KTMT adı altında öz əlavə hərbi qüvvəsini bölgəyə yeritməkdir ki, bununla Moskva bölgədə güc nümayiş etdirmək niyyətindədir. Ola bilər ki, təlim adı altında yeritdiyi həmin gücü sonradan bölgədə saxlasın. Sözsüz ki, Paşinyan da bunu məqbul hesab etmir. Rusiyanın Ermənistanı öz hərbi bazası kimi bu cür istismar etməsi və yaxud etmək cəhdi həm Azərbaycanla sülh müqaviləsinin imzalanmasının müddətini uzadır, bunun ehtimallarını azaldır, həm də Paşinyanın xarici siyasətində ayrıca bir bənd olan Türkiyə ilə münasibətləri yaxşılaşdırmasına mane olur...

Eyni zamanda, Paşinyan hakimiyyətə gəldiyi gündən çalışır ki, Ermənistanı mümkün qədər Rusiyadan uzaqlaşdırsın. Bunun əvəzində Rusiya da bu ölkəyə mümkün qədər təsirini artırmağa çalışır. Kremldə yaxşı başa düşürlər ki, Ermənistanın nəzarətdən, onun təsir dairəsindən çıxacağı halda, şübhəsiz ki, Rusiya bütövlükdə bölgəni itirmək təhlükəsiylə üzüzə qalacaq.

Bax, fikrimcə, bütün mübahisə bunun ətrafındadır. Digər tərəfdən, Paşinyan alternativ tapa bilmir. Alternativ məsələsi də belədir: Paşinyan bəlkə də istəyərdi ki, Türkiyə ilə münasibətləri tənzimləsin, eyni zamanda Azərbaycanla sülh müqaviləsi əldə etsin. Ancaq gördüyünüz kimi, buna çox ciddi müqavimət var. Həmin müqavimət yalnız Rusiya tərəfdən deyil, həm Ermənistanın daxilindəki rusiyapərəst müxalifət, həm də Qarabağdakı separatçı qondarma rejim tərəfindən və şübhəsiz ki, həmin rejimi himayə edən "sülhməramlı"lar tərəfindəndir...

***- Görəsən, bütün bunlardan sonra Kreml, Putin Paşinyan üçün də "Saakaşvili taleyi" planlaşdırmayıb ki?***

- Paşinyanın əvvəldən və o cümlədən Rusiya və KTMT ilə bağlı son mətbuat konfransında da sərgilədiyi mövqe, şübhəsiz ki, Kremldə razılıqla qarşılana bilməz. Kreml onsuz da Ermənistan daxilindəki "5-ci kalon"u vasitəsilə daim Paşinyana qarşı siyasət yürüdüb. Düşünürəm, xüsusən KTMT-nin təlimlərinə ev sahibliyi etmək imtinasından sonra Rusiya-Ermənistan münasibətləri özünün yeni bir mərhələsinə keçir. Təbii ki, bu mərhələ münasibətlərin inkişafı baxımından müsbət kimi dəyərləndirilə bilməz. Rusiyanın da buna cavab tədbirləri olacaq. O cavab tədbirlərinin hansı şəkildə olacağını söyləmək çətindir. Daxildən hansısa güclər, təsirlər hesabına Paşinyanı devirmək, ən azı, indiki mərhələdə inandırıcı görünmür. Ermənistana hərbi müdaxilə etmək də qeyri-mümkündür. Rusiyanın bu ölkədəki 102-ci hərbi bazasının bunun üçün gücü yetərincə deyil. Kənardan güc yeritmək üçün isə Moskvanın imkanı çox məhduddur. Ona görə ki, Rusiyanın Ermənistanla birbaşa sərhədi yoxdur. Bu yalnız Gürcüstan və ya Azərbaycan vasitəsilə ola bilər. Rəsmi Tiflis və Bakının buna imkan verəcəyi də sual altındadır...

Bir sözlə, Rusiyanın Paşinyanın son bəyanatları ilə bağlı mövqeyi bəllidir və görünür ki, Kreml Paşinyandan canını qurtarmağa çalışır. Bu, yeni bir trend deyil. 44 günlük savaşdan sonra Moskva buna cəhd göstərdi. Onadək isə Paşinyana ciddi problemlər yaratmağa çalışırdı. Əgər 2020-ci ilin payızındakı müharibədə Ermənistanın ağır hərbi məğlubiyyətindən sonra Rusiya Paşinyanı devirməyə nail ola bilmədisə, hazırkı durumda onun buna nail olacağı daha az inandırıcı görünür. Unutmayaq ki, bütün zəifliyinə, Ukrayna müharibəsindəki məğlubiyyətinə və s. məsələlərə baxmayaraq Rusiya hələ də Ermənistanla, Azərbaycanla, digər postsovet ölkələri ilə müqayisədə kifayət qədər gücə və təsirə malikdir. Ən azı, Kremlin bir çox keçmiş müttəfiq respublika daxilində mövcud olan geniş şaxəli "5-ci kalon"ları bunu deməyə əsas verir. Bəs Moskva Ermənistanın hazırkı baş naziri Nikol Paşinyana Saakaşvilinin taleyini yaşada biləcəkmi? Bunu söyləmək çətindir. Düşünmürəm ki, bunu etmək Rusiya üçün asan olacaq. Ermənistanda Paşinyan hökumətindən narazılıqlar olsa da, hələ onlar özünün, belə deyək, kulminasiya nöqtəsinə çatmayıb. Həm də həmin narazılıq, hökumətdən narazı kütlə kritik çəkiyə malik deyil. Paşinyana qarşı narazılıq və etirazlar kritik həddə çatarsa, bəlkə də Rusiya üçün ona "Saakaşvili taleyi"ni yaşatmaq imkanı yaranar. Hazırda bunun əlamətləri görünmür...

***- Hipotetik olaraq təsəvvür edək ki, hər üç Güney Qafqaz respublikası aralarındakı ziddiyyətləri kənara qoyub Moskvaya qarşı birgə mümkün qədər kəskin demarşlar edirlər, mübarizə aparırlar, Avropa və ABŞ da onlara yetərli dəstək verir - müsbət nəticə alınarmı? Yəni bu minvalla Rusiyanın ayağını regiondan tam kəsmək olarmı?***

- Əgər 3 Qafqaz ölkəsi aralarındakı bütün ziddiyyətləri çözərlərsə, şübhəsiz ki, demokratik dünya onlara dəstək dura bilər və duracaqdı da... Bunun nümunələri var. Məsələn, unutmayaq ki, 2008-ci ildə Rusiyanın Gürcüstana təcavüzü elə bir həddə gəlib çatmışdı ki, Rusiya qoşunları faktiki olaraq paytaxt Tbilisinin 40 kilometrliyində idilər. Yəni Qori şəhərinədək gəlib çıxmışdılar. Bundan sonra Qərb ölkələri Fransanın ozamankı prezidenti Nikola Sarkozini danışıqlar aparmaq üçün Putinin yanına göndərdi. Əlbəttə, biz o danışıqların məzmununu bilmirik. Onların arxasında nələrin dayandığını, o cümlədən Qərbdən gələn təkliflərin hansılar olduğunu bilmirik. Şübhəsiz ki, orada sərt xəbərdarlıqlar vardı. Sərt xəbərdarlıqlar olduğundan da Moskva öz qoşunlarını geri çəkməyə məcbur oldu. Mən əminəm ki, Cənubi Qafqazın hər üç ölkəsi arasında heç bir ziddiyyət olmazsa, Qərbin, ABŞ və Avropanın dəstəyini qazanmaq, özü də birlikdə tamamilə mümkündür. Ziddiyyətlərə gəldikdə, düşünürəm, bugünkü mərhələdə onlar faktiki çözülmək üzrədir. Məsələn, Gürcüstanla Azərbaycan arasında heç zaman, heç bir ciddi ziddiyyət olmayıb. Gürcüstan elə 44 günlük savaşda da Azərbaycanın mövqeyindən çıxış edib, öz ərazisindən, o cümlədən də hava məkanından Ermənistana silah-sursat keçirilməsinə qadağa qoysa da, Ermənistan-Gürcüstan münasibətləri də kəskinləşməyib. Ermənistanla münasibətlərimizdə Ermənistanın Azərbaycana ərazi iddiaları var. İrəvandakı hakimiyyət həmin iddialardan, demək olar ki, imtina edib.

> *Rusiya Azərbaycan-Ermənistan münasibətlərini de-fakto 1988-ci ilin əvvəllərinə qaytarmış oldu*

***- Bəlkə elə Qarabağ məsələsinin tam yekunlaşmaması, Ermənistanla sülh sazişinin imzalanmamasının əsas səbəbi Ermənistan rəhbərliyinin bacardığı qədər Rusiyadan uzaqlaşmağa çalışması, Azərbaycanda isə ictimaiyyətin kəskin münasibətinə rəğmən hələ də güclü olan "5-ci kalon"mövcudluğudur?***

- Bilirsiniz, "5-ci kalon" hər yerdə var: Ermənistanda da, Gürcüstanda da, Azərbaycanda da. Sadəcə olaraq bu gün Gürcüstandakı hakimiyyət, deyərdim ki, haradasa bir balanslı siyasət yürütməyə çalışır. BiGürcüstanın da ərazisində Rusiya tərəfindən de-fakto ilhaq olunmuş və Kremlin formal baxımdan guya "müstəqil" dövlətlər kimi tanıdığı separatçı bölgələr var. Ermənistan da Moskvadan uzaqlaşmağa çalışır. Azərbaycanda isə vəziyyət fərqlidir...

Azərbaycan istər Gürcüstan, istərsə də Ermənistandan daha əlverişli vəziyyətdə olmasına rəğmən sanki Rusiya ilə hesablaşmağa, onun maraqlarını nəzərə almağa çalışır. Bu, bir az qeyri-adi haldır. Səbəbini söyləmək çətindir, amma şübhəsiz ki, burada həmin "5-ci kalon"un bilavasitə rolu var. Ona görə də həmişə dediyim kimi, ölkələrdə müstəqillik və suverenliyin təmin olunması üçün "5-ci kalon"lar mütləq ləğv edilməlidir. Təbii ki, bizi bu situasiyada daha çox Azərbaycan narahat edir. Və biz "5-ci kalon"un ləğvinə hökmən nail olmalıyıq. Əks təqdirdə həmin "5-ci kalon" Azərbaycanı Rusiyanın orbitindən çıxmağa qoymayacaqdır. O, bütün gücü ilə ölkədə istər destablizə, istər qarşıdurma olsun, istər hansısa digər vasitələrlə Rusiyanın təsir dairəsində qalmağımıza xidmət göstərəcək. Zatən "5-ci kalon"un vəzifəsi budur...

***- Əgər belə davam edərsə, Qarabağda bir fiqur kimi meydana çıxmasına vaxtında mane olmadığımız Vardanyan Rusiya hərbi kontingentinin də dəstəyi ilə erməni toplumunu 1988-1991-ci illərdə olduğu kimi, yenidən Azərbaycana qarşı diversiya, təxribat, orduya, mülki əhaliyə qəfil hücumlar, avtomobil yollarının minalanması, atəşə tutulması və s. ilə müşayiət olunan separatçı-terrorçu mübarizəyə qaldırmağa nail ola bilərmi? Nəzərə alsaq ki, o vaxt da dünyada "əzabkeş erməni xalqı" obrazı həm də Laçından, Şuşadan keçən quru yolunun ermənilər üçün 1990-1991-ci illərdə tam bağlanması olmuşdu...***

- Bəli, Rusiyanın Qarabağın dağlıq hissəsində "sülhməramlı" adlanan silahlı qüvvələrinin nəzarətində olduğu və ermənilərin kompakt yaşadığı ərazidə can atdığı ssenari məhz budur. Moskva çalışır ki, Azərbaycana təsir, destablizasiya vasitəsi kimi Qarabağdakı separatçılardan istifadə etsin. Elə məhz həmin səbəbdən də Ruben Vardanyanı həmin ərazimizə yerləşdirib və hal-hazırda onun mövqeyini gücləndirməkdədir. Düşünürəm ki, Azərbaycanla Rusiya arasındakı bu və ya digər ziddiyyətlər kəskinləşəcəyi halda Kreml mütləq bu alətə əl atacaqdır. Və buna hazır olmaq lazımdır, buna imkan vermək lazım deyil. Amma faktiki olaraq 2020-ci ilin 44 günlük savaşının sonunda Rusiyanın hərbi kontingentinin Qarabağın dağlıq hissəsində yerləşdirilməsinə imkan verməyimiz bizi gətirib həmin bu tələyə salıbdır. Və Kreml də bundan məharətlə istifadə edir. Bir daha deyirəm ki, Rusiya Qarabağda heç bir sülhməramlı missiya yerinə yetirmir və o, Azərbaycanı, bölgədəki vəziyyəti, Azərbaycan-Ermənistan münasibətlərini de-fakto 1988-ci ilin əvvəllərinə qaytarmış oldu. Hər şey o zaman olduğu kimidir.

Qarabağın yuxarı hissəsində separatizm, qalan ərazilər hələlik Azərbaycanın nəzarətində olması və Rusiyanın Xocalıda soyqırım törətmiş 366-cı alayının əvəzinə, sayca ondan daha üstün olan "sülhməramlı" adlanan kontingent... Odur ki, bu saat Moskvanın əlində həmin münaqişənin yeni dalğasını başlatmaq üçün bütün resurslar mövcuddur. Yeganə fərq ondadır ki, hazırda Azərbaycan tək deyil, yanında, arxasında Türkiyə kimi müttəfiqi var, ikincisi Azərbaycanın ordusu var və o illərdəki durumda deyil. Bununla belə, onu da unutmamalıyıq ki, bəli, Qarabağda həmin separatçılıq daha aktiv şəkildə baş qaldıracağı və Azərbaycanın ona qarşı tədbirlər görməyə başlayacağı halda Qərbin ermənipərəst ölkələrində və dairələrində erməni separatçılarına dəstək özünü çox gözlətməyəcəkdir. Bunu da nəzərə alaraq mən hər zaman mümkün qədər "yumşaq güc"dən istifadə olunmasının tərəfdarıyam. Hesab edirəm ki, belə vasitələr var, onlar hələ tükənməyib. Hal-hazırda Laçın-Şuşa-Xankəndi yolunda keçirilən ekofəalların müqaviməti ilə müşayiət olunan aksiya müəyyən mənada effektivdir. Bunun davamı gəlməlidir. Yəni bu, sistemli davamlı prosesə çevrilməldir. Ta o zamana kimi ki, Rusiya qeyd etdiyiniz həmin o təhrikçiliyə keçməyəcəkdir. Moskva o varianta mütləq keçəcəkdir. Bu, yalnız zaman məsələsidir...

✍ **Sultan Laçın**

---

**_Prezident İlham Əliyevin ötən il imzaladığı fərmana əsasən, Azərbaycanda çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının siyahıları təsdiq edilib. Qeyd edək ki, fərman "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 fevral tarixli 1589 nömrəli Fərmanının icrası ilə əlaqədar verilib._**



# Dövlət qurumlarının mətbu orqanları

### *Kim necə fəaliyyət göstərir?*

## Media

Xatırladaq ki, "Media haqqında" Qanununun 59.2. maddəsinin tələbinə əsasən, Azərbaycan Respublikasının Milli Məclisi, Konstitusiya Məhkəməsi və Ali Məhkəməsindən savayı, yalnız müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən dövlət orqanları (qurumları) çap mediası subyektinin təsisçisi ola bilər. Prezidentin imzaladığı fərmanla təsdiq edilən siyahıda çap mediası subyektinin təsisçisi ola bilən 10 dövlət orqanı qeyd olunub. Həmin dövlət orqanları Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi, Elm və Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti, Azərbaycan Milli Elmlər Akademiyası, Dövlət İmtahan Mərkəzidir. Məlumat üçün vurğulayaq ki, Prezidentin ötən il verdiyi həmin fərmana qədər dövlət qurumlarının əksəriyyəti çap mediası subyektinin təsisçisi idi. Bəs, görəsən, dövlət qurumlarının təsisçisi olduğu qəzet və saytlar hazırda fəaliyyətlərini necə davam etdirirlər? Yeni ildən onların iş mexanizmi necə qurulub? Bu media subyektlərinin maliyyələşmə mexanizmi necədir? Həmin media subyektləri Media Reyestrində qeydiyyatdan keçiblərmi?

"Həftə içi" qəzeti olaraq bu suallara aydınlıq gətirmək məqsədilə ayrı-ayrı dövlət qurumlarına və media subyektlərinə müraciət etdik. Onlardan aldığımız cavabları oxucularımıza təqdim edirik.

■ **Vüqar Əliyev, "Mədəniyyət" qəzetinin baş redaktoru:**

- Mədəniyyət" qəzetinin ilk sayı 1991-ci ilin 2 yanvar tarixində nəşr olunub. Qəzetin təsisçisi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyidir. Nazirliyin mətbu orqanı kimi nəşrin başlıca vəzifəsi ölkədə mədəniyyət sahəsində həyata keçirilən dövlət siyasətini işıqlandırmaq, bu sahədə görülən işləri ictimaiyyətə çatdırmaqdır. Qəzetin elektron versiyası, yəni www.medeniyyet.az saytı isə 2008-ci ilin oktyabrından fəaliyyət göstərir. Qəzetin təsisçisi Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi olsa da, qəzet özüözünü maliyyələşdirən təşkilatdır. Yəni, qəzetin bütün xərcləri abunə hesabına qarşılanır". Baş redaktor öz açıqlamasında həm qəzetin, həm də saytın Media Reyestrində qeydiyyatdan keçdiyini bildirib.



■ **Sarvan İbrahimov, "Azərbaycan müəllimi" qəzetinin baş redaktoru:**

- "Azərbaycan müəllimi" qəzeti yarandığı ilk gündən xalqın savadlanması yolunda bir çıraq kimi yanıb, çoxminli oxucularının ehtiyac duyduğu və bəhrələndiyi zəngin bilik və informasiya mənbəyi rolunu oynayıb. 90 illik yubileyinə 2 ildən də az vaxt qalmış mətbu orqanı bu illər ərzində çoxməzmunlu, zəngin, bədii, elmi-publisistik, elmi-pedaqoji araşdırmaları ilə oxucunun, müəllimin, tələbənin, şagirdin, valideynin ən yaxın sirdaşına çevrilib, milli-mənəvi, əxlaqi dünyagörüşünün zənginləşməsində etibarlı dostu olub.

Fəaliyyətini müasir təhsil çağırışlarına uyğun quran "Azərbaycan müəllimi" mütəmadi olaraq ölkə təhsilinin aktual problemlərini işıqlandırmış, qabaqcıl pedaqoji təcrübəni geniş təbliğ etmiş, təhsil üzrə ixtisaslaşmış jurnalistlərin formalaşmasında da aparıcı rol oynayıb.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş islahatlar proqramının tərkib hissəsi olan təhsil strategiyasının həyata keçirilməsi və təbliği, eləcə də təhsil sahəsində dövlət siyasətinin geniş ictimaiyyətə çatdırılması "Azərbaycan müəllimi"nin əsas fəaliyyət istiqamətidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuş "Azərbaycan - 2030: sosial-iqtisadi inkişaf üzrə Milli Prioritetlər"ə və "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na müvafiq olaraq "Azərbaycan müəllimi" qəzeti hazırda ali dövlət sənədlərində nəzərdə tutulmuş vəzifələri əsas götürərək bir sıra layihələrin icrasını ilə bağlı fəaliyyət planı hazırlayıb. Məsələn, "Heydər Əliyev İli" çərçivəsində və təhsilin bütün pillələri üzrə bir çox istiqamətlərdə il ərzində tədbirlər planı həyata keçiriləcək. İcrası nəzərdə tutulan layihələrdən "Gənc tədqiqatçı", "Mənim universitetim", "Tədqiqat universiteti", "Elm və innovasiyalar", "Xaricdəki alimlərimiz", "Universitetlər startap layihələrində", "Region məktəblərində", "Təhsilin peşə vizyonu", "Uğurlu məktəb". Baş redaktor rəhbərlik etdiyi media subyektinin maliyyələşmə mexanizminə də aydınlıq gətirərək qeyd edib ki, qəzetin maliyyə mexanizmi abunə və elanlar hesabına tənzimlənir. O həmçinin "Azərbaycan müəllimi" qəzetinin Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin (MEDİA Agentliyi) Media Reyestrində qeydiyyatdan keçdiyini də bildirib.

■ **Sadiq Mirzəyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Dini maarifləndirmə işinin təşkili şöbəsinin müdiri:**

- "Cəmiyyət və din" qəzeti hər ayın sonu çap olunurdu. Bu ildən elektron formata keçirik və yanvar ayının sonundan etibarən ayda bir dəfə işıq üzü görəcək. Qəzetdə ənənəvi rubrikalarla yanaşı, yeni rubrikalar da hazırlanacaq. Hazırda bununla bağlı müzakirələr aparırıq".

Qəzetin maliyyə xərclərinin hansı formada qarşılandığına gəlincə, S.Mirzəyev deyib ki, indiyədək bunu qəzetin təsisçisi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi təmin edirdi: "Bu ildən biz elektron formata keçirik. Eyni zamanda, bizim "Dövlət və Din" adlı jurnalımız da var. Jurnal dinşünaslıq, dinin tarixi və fəlsəfəsi ixtisasları üzrə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında qeydiyyatdan keçib. Jurnalımız da elektron formatda işıq üzü görəcək. Bu il jurnalın saytının yaradılması da nəzərdə tutulub. Hər iki nəşrin təsisçisi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsidir. Bu nəşrləri Dini maarifləndirmə işinin təşkili şöbəsi hazırlayır. Nəşrin hazırlanmasında şöbənin əməkdaşları iştirak edirlər. Hər iki nəşrdə Komitə əməkdaşları ilə yanaşı, kənar müəlliflərin yazıları dərc olunur. Şöbədə həmin nəşrlərin dərci ilə əlaqədar redaksiya işləri icra edilir, kənar müəlliflərin əlyazmalarının qəbulu və redaktəsi texnologiyasına uyğun istehsalat-yaradıcılıq prosesi aparılır və nəşrlərin profilinə uyğun gələn yazılar işıq üzü görür". Sözügedən nəşrlərin Media Reyestrində qeydiyyatdan keçib-keçmədiyinə gəlincə, qurum rəsmisi deyib ki, hələlik bununla bağlı müraciət edilməyib, amma bu məsələ də müzakirə olunmaqdadır.

■ **Elşən Əliyev, "Vətən səsi" qəzetinin baş redaktoru, əməkdar jurnalist:**

- "Vətən səsi" artıq onlayn qəzetdir. Qəzet kağız daşıyıcıda 1990-cı ilin aprelində nəşrə başlayıb və 2022-ci il sentyabrın 24-nə qədər Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin himayəsi altında həftədə bir dəfə olmaqla 1500 nömrəsi çapdan çıxıb. Yəni, "Vətən səsi" onlayn qəzeti eyniadlı qəzetin hüquqi varisidir. Ölkəmizin ilk müstəqil mətbu orqanlardan biri kimi 30 ildən artıq nəşr olunan qəzet qaçqınlar və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin işıqlandırılmasında, tarixi torpalqarımız olan Qarabağın, Şərqi Zəngəzurun, Qərbi Azərbaycanın məruz qaldığı faciələr, həmin ərazilərdəki dogma yurdundan didərgin düşən soydaşlarımızın həyatı barədə həqiqətlərin geniş yayılmasında əhəmiyyətli rol oynayıb, geniş maarifçiliklə, milli mənəvi dəyərlərimizin təbliği ilə məşğul olub, milli mətbuatımızın inkişafına töhfələr verib. Hazırda onlayn rejimdə fəaliyyət göstərən qəzetin yaradıcılıq istiqaməti, yenə tematik olaraq, qaçqın və məcburi köçkünlə bağlı mövzulara fokuslanıb. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinin, Böyük Qayıdışa hazırlıq və onun uğurla həyata keçirilməsi proseslərinin, Qərbi Azərbaycanla bağlı tarixi həqiqətlərin işıqlandırılması, mədəni-mənəvi irsimizin qorunması və zənginləşdirilməsi redaksiyanın qarşısında mühüm vəzifə kimi qoyulub. Bundan sonra da qeyd etdiyim istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik".

Baş redaktor, həmçinin Media Reyestrində qeydiyyatdan keçmək üçün aidiyyəti üzrə müraciət etdiklərini də bildirib: "Onlayn media subyekti olaraq Reyestrdə qeydiyyata düşmək üçün müraciət etmişik. Hazırda müraciətimiz baxılma mərhələsindədir".

■ **Qabil Mehdiyev, Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri:**

- Məlum olduğu kimi, ötən il dövlət başçısı tərəfindən Azərbaycanda çap mediası subyektinin təsisçisi ola bilən dövlət orqanlarının siyahıları təsdiq edilib. Biz bundan sonrakı fəaliyyətimizi həmin sənədə uyğun quracağıq. Yəni, "İdman" qəzeti öz işini artıq onlayn formada davam etdirəcək. Təsisçimiz isə dövlət qurumu olaraq Gənclər və İdman Nazirliyidir. Çünki qəzet nazirliyin tabe təşkilatıdır və bu Nazirlər Kabinetinin qərarı ilə ləğv oluna bilər. Sadəcə bizə tövsiyyə olunmuşdu ki, qəzet çap variatında deyil, elektron variantda fəaliyyətini davam etdirsin. Bundan sonra da qəzet elektron vatiantda işini davam etdirəcək.

Qurum rəsmisi "İdman" qəzetinin Media Reyestrində qeydiyyatdan keçmək üçün aidiyyəti üzrə hələlik müraciət etmədiyini bildirib: "Hələ ki, bununla bağlı müraciət edilməyib. Amma yəyin ki, onlayn media subyekti kimi fəaliyyət göstərmək məqsədilə Reyestrdə qeydiyyata düşmək üçün müraciət olunacaq".

■ **Natiq Axundov, Dövlət Gömrük Komitəsinin mətbuat xidmətinin rəhbəri:**

"Komitənin heç bir media subyekti yoxdur. "Gömrük xəbərləri" qəzeti fəaliyyətini dayandırıb. Hazırda Komitənin dövlət qurumu olaraq yalnız rəsmi saytı fəaliyyət göstərir".

■ **İradə İbrahimova, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri:** "Nazirliyin dövlət qurumu olaraq yalnız rəsmi saytı fəaliyyət göstərir. Sayt da nazirliyin ekoloji maarifləndirmə və ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşları tərəfindən idarə olunur".

✍ **Sevinc**

# Uşaq və gənclərimiz sağlam qidalanırmı?

## Layihə

*Gələcəyimiz olan uşaq və gənclərin hərtərəfli yetişməsi, sağlam, intellektual vətəndaş kimi formalaşması dövlət üçün əsas prioritetlərdəndir. Təbii ki, sağlam gələcəyimiz həm də sağlam qidalanmadan asılıdır. Amma etiraf edək ki, bu gün uşaq və gənclərimizi zərərli qidalardan, qeyri-sağlam məhsullardan tam şəkildə qoruya bilmirik. İndiki gənclik daha çox hazır qidalara, tez hazırlanan məhsullara üstünlük verirlər ki, mütəxəssislər bu cür qidalanma üsulunun gələcəkdə ciddi fəsadlara yol aça biləcəyi qənaətindədirlər.*



**■ Mövzu ilə bağlı qəzetimizlə fikirlərini bölüşən qida üzrə baş mütəxəssis Ağa Salamov hesab edir ki, əslində uşaqların zərərli qidalara vərdişlərində XXI əsrin texnologiyasının güclülüyünün və dördüncü sənaye əsrinin olmasının rolu var:**

"Mən dördüncü sənaye əsrinin sonuncu sənaye əsri olduğunu deyirəm. Yəni, daha bundan sonra mən insanların sağlamlıq baxımından gələcəyini görmürəm. Xəstəliklər, viruslar artmaqda davam edəcək. Çünki dördüncü sənaye əsri süni qidalar əsridir. Bu əsr elə bir əsrdir ki, bu sənaye, yəni, istehsal olunan məhsullar valideynləri tənbəlləşdirir, avtomatik olaraq da kəndlini tənbəlləşdirir. Yəni, insanları torpaqdan ayırıb supermarketlərin içinə atır və supermarketlərdə də satılan qidaların 90 faizi süni məhsullardır. Yerdə qalan torpaqdan çıxan məhsullardır.

Onlar da tərkibində nitratı çox olan zəhərlənmiş məhsullardır. Əslində biz baxırıq ki, təkcə uşaqlar deyil, o cümlədən, bütün dünya dördünücü sənaye əsrinin qloballaşmasından və genişlənməsindən əziyyət çəkir. Təbii ki, uşaqlar məsum bir varlıqdırlar və valideynlər çalışmalıdırlar ki, maksimum dərəcədə uşaqları "abur-cubur"lardan uzaq tutsunlar. Ümumiyyətlə, milli cizgi filmləri olmalıdır, uşaqlar milli cizgi filmlərinə üstünlük verməlidirlər. Çünki, xarici cizgi filmlərinə şirkətlər öz kadrlarını yerləşdirirlər şüuraltı şəkildə zərərli qidaların reklamını edirlər. Bu kimi məsələlərə nəzarət mütləq gücləndirilməlidir".

Mütəxəssis vurğulayıb ki, uşaq və gənclərin sağlam qidlanmasına nəzarət gücləndirilməsə, bu gələcəkdə ciddi fəsadlara yol aça bilər: "İlk növbədə, şagird və tələbələr üçün sağlam qida menyusu tərtib edilməlidir. Bunu sağlam qida mütəxəssisləri, düzgün elmə yiyələnmiş texnoloqlar edə bilər. Əgər təklif gəlsə, mən bu menyunu könüllü şəkildə, sevə-sevə təmənnasız tərtib edərəm. Sağlam qidanın əsasını sağlam ərzaqlar və pəhriz təşkil edir. Pəhriz deyərkən, kimsə düşünməsin ki, söhbət xəstələr üçün tərtib edilən pəhrizdən gedir. Təbii ki, bu belə deyil. Pəhriz, orqanizmin normal fəaliyyəti üçün vacibdir. Şagird və tələbələr enerji içkilərindən istifadə etməməlidir, təkrar emal prosesi keçmiş yağda qızardılan qidaları qəbul etməməlidirlər. Hamımız bilirik ki, içində kartof olan un məmulatlarını nəinki səhər qızartma tavasına tökülən yağda axşamadək, hətta axşamdan tavada qalmış yağda bişirirlər. Bu, orqanizmdə konserogen maddələrə birbaşa "dəvətdir. Orta məktəblərdə enerji içkiləri, bildiyim qədər satılmır. Amma şagirdlər dərsdən sonra istədikləri köşkdən enerji içkisi alıb içir. Ali məktəb tələbələri də həmçinin. Enerji içkiləri ona görə ziyandır ki, rəngli və qazlı olduğu üçün onların tərkibinə fosfor turşusu əlavə edilir. Üzərində də yazılır: "Soyuq halda için". Niyə bunu yazırlar, çünki soyuq halda içiləndə tərkibindəki kimyəvi maddə hiss edilmir. Enerji içkisini kimsə soyudulmamış içsə, ürəyi bulanacaq, içə bilməyəcək. Bu içkilər belə istehsal edilir. Guya ki, bədəni enerji ilə təmin edir deyə durmadan reklam olunurlar.



**Ağa Salamov**, qida üzrə baş mütəxəssis

Enerji içkiləri ürəyin ritmini artırmaqla, təbii ritmi pozur. Bir müddət sonra isə verdiyi saxta enerjini orqanizmdən geri alır. Orqanizmin təbii enerjisini də bədəndən çıxarır. Gənclər arasında ürək çatışmazlığı, baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, yorğunluğun hamısı bu içkilərin hesabınadır. Amma onlar qadağan edilmir. Tələbələrin yediyi nədir, fast-foodlar. Hansı ki, bu qida da orqanizmə ziyandır. Həm qazlı, rəngli içkilər, həm də quru yeməklər mədə-bağırsaq sistemini pozur, onikibarmaq bağırsağın zədələnməsinə, mədədə eroziyanın yaranmasına səbəb olur, bunlar da nəticədə xərçəngə gətirib çıxarır. Sözsüz ki, qida təhlükəsizliyi təkcə məktəblə, univeristetlə həll ediləsi iş deyil. Valideynlər də övladlarına düzgün qidalanma qaydalarını öyrətməlidirlər. Əgər uşaq və ya gənc evdə daim qazlı içkilərə, fast-foodlara, kartof-frelərə rəğbət görürsə, məktəbdə yeməsə də, evə gələndə yeyəcək. Valideynlər də sağlam qidalanma barədə məlumatlı olmalıdırlar. Valideynlərin ixtiyarı var ki, məktəb bufetinə daxil olub, ərzaqların vəziyyətinə baxsın. Dövlət qurumları da öz vəzifələrini icra edərək nəzarəti gücləndirməlidir. Ən əsası isə qeyri-sağlam qidaların təhsil müəssisələrinə yol tapmasına imkan verilməməlidir".

> *"Xarici cizgi filmlərinə şirkətlər öz kadrlarını yerləşdirirlər şüuraltı şəkildə zərərli qidaların reklamını edirlər*

A.Salamov, həmçinin qeyd edib ki, bəzən şagirdlərin məktəbə evdən gətirdikləri yemək də sağlam qida olmur: "Əsasən ibtidai sinif şagirdlərinin məktəb çantasına valideynlər yemək qoyur. Amma bu, zülal tərkibli qidadırsa, yəni ət, toyuq, yağlı yeməkdirsə, qətiyyən olmaz. Bunları məktəbə gətirmək düzgün deyil. Bir müddət qapalı vəziyyətdə, havasız yerdə saxlanan qidanın tərkibində dəyişiklik baş verir. Bu, qarın ağrısı, ishal, ürəkbulanmadan tutmuş, zəhərlənməyə qədər səbəb ola bilər. Uşaq üçün məktəbə yemək qoymaq istəyirlərsə, bu ancaq quru qidalar, quru meyvələr, müxtəlif çərəzlər, meyvə, meyvə suyu olmalıdır. Kənardan gətirilən qidalarda da mikro-bioloji çirklənmə tez baş verir. Qida çantada çirklənməyə məruz qala bilər, uşaq yeməkdən əvvəl əllərini yumayacaqsa, yenə də qidanın çirklənməsi və bakteriyaların orqanizmə düşməsi baş verəcək. Ona görə də biz uşaqları təzə meyvə, tərəvəz yeməyə alışdırmalıyıq. Təzə meyvə və tərəvəzlərin, günəşdən aldığı enerji səbəbiylə qida dəyərləri çox zəngin olur. Eyni zamanda, tərəvəzləri "Blanch" texnologiyası ilə bişirməliyik ki, tərkibindəki vitaminləri qorumaq mümkün olsun. Bu texnologiya nədir? "Blanch" texnologiyası bişən tərəvəzlərin rəngini, qida dəyərini və görünüşünü qorumaq məqsədi daşıyır. Bu texnologiya fransızcada "ağartmaq" anlamına gəlir, eyni zamanda fransız dilində məhsulların isti suda möhürlənməsinə də "blanch" deyilir. "Blanch" texnologiyasının tətbiqi zamanı tərəvəzlər qaynar suya əlavə olunur və biraz qaldıqda səthləri möhürlənir. Daha sonra tərəvəzlər qaynar suda möhürlənib, əvvəlcədən hazırlanmış buzlu suya qoyulur. Beləliklə, vitamin və mineral itkisinin qarşısı alınır. Bu texnologiya tərəvəzlərin rənginin canlı qalmasını və qida dəyərinin dəyişməməsini təmin edir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi
Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**■ Mövzu ilə bağlı Psixologiya və Konsultasiya Mərkəzinin rəhbəri, psixoloq Elnur Rüstəmov isə qeyd edib ki, informasiya əsrində yaşadığımız üçün bu gün uşaqların hərəkət məhdudiyyətləri var.** Bunun fonunda da uşaqların qida rasionu dəyişməyə başlayıb: "Heç də təsadüfi deyil ki, onların öz dili ilə desək, kartof fri və digər fast food qidalar az qala uşaqların sevimli yeməyinə çevrilib. İldən-ilə biz görürük ki, artıq uşaqların ağız dadı belə dəyişməyə başlayıb. Daha çox üstünlük təşkil edən beynəlxalq qida brendləridir. Düzdür, məsələnin görünən tərəfi o qədər də gözə çarpan deyil, mən düşünürəm, bunlar nəzərə alınıb ki, qida rasionu dəyişsin. 10 il əvvəl ilə müqayisə etsək, görərik ki, bu gün fast food qidalardan istifadə edən uşaqların sayı çoxdur. Əlbəttə, bunlar onların həm psixi, həm də fizioloji sağlamlığına təsir göstərir. Digər tərəfdən, bu gün oturaq həyatın üstünlük təşkil etməsi də uşaqların fiziki sağlamlığına təsir göstərir. Burada valideynin, məktəbin, bir də cəmiyyətin üzərinə düşən məsuliyyət var. Mən düşünürəm ki, bu istiqamətdə maariflənmə işi aparmaq lazımdır. Bu maariflənmə işi də daha çox idiolojiyə əsaslanmalıdır. Yəni bu, ictimai şüur olaraq təlqin olunmalıdır. Bəli, bu gün cəmiyyətdə kifayət qədər insanlar var ki, oturaq işləri var. Ancaq görürük ki, həmin insanlar səhər tezdən və yaxud axşam yürüyüş edir, nahar vaxtı parklarda gəzirlər. Bu, fiziki sağlamlıq üçün vacibdir. Gəlin biz uşaqlara baxaq, biz uşaqları gəzməyə aparanda daha çox nə etmək istəyirlər? Uşaq psixologiyası ilə yanaşıb hərəkətli, dinamik şeylər oynamaq istəyirlər. Bunun əksinə isə onlar daha çox telefonda, elektron cihazlarda vaxt keçirirlər. Şübhəsiz ki, orda aldıqları informasiyalar da onların davarışına, ünsiyyətinə, ailə və cəmiyyət ilə münasibətinə təsir göstərir o da ayrı bir söhbətdir".

**✍ Sevinc**

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Azərbaycanın hərbi sahədə yeni hədəfləri

***Vətən müharibəsində əldə olunmuş tarixi zəfərdən sonra Azərbaycan ordusunda yeni sistemin yaradılmasına, dərin islahatların aparılmasına start verildi. Hazırda yeni birliklər yaradılır, xüsusi təyinatlılarımızın sayı artırılır. Müttəfiq dövlətlərlə hərbi təchizat sahəsində yeni müqavilələr imzalanır, silahlar alınır. Digər tərəfdən, Ukrayna-Rusiya müharibəsi fonunda dünyadakı silah bazarında ciddi boşluqlar yaranıb. Azərbaycan özünün hərbi sənaye kompleksini daha da inkişaf etdirərək bu bazarda özünə yer tutmağı, yaranmış imkanlardan maksimum yararlanmağı hədəfləyib. Bəs bu hədəflərə çatmaq nə dərəcədə realdır, ümumiyyətlə ordu sistemindəki dəyişikliklərin əsas hədəfləri hansılardır?***



**■ Telman Qasımov, hərbi ekspert:**

- 44 günlük müharibədən sonra Azərbaycanda müasir innovasiyalara uyğun olaraq yeni ordu quruculuğu davam etdirilir. Azərbaycan Silahlı Qüvvələrində bir neçə yeni hərbi hissənin açılması, xarici dövlətlərlə, xüsusən müttəfiqimiz Türkiyə, İsrail, Pakistanla hərbi əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, o cümlədən, müasir IV-V nəslə uyğun müasir silahların alınması və istehsal olunmasında böyük irəliləyiş müşahidə olunur. Son həftə ərzində Türkiyənin hərbi sənaye naziri tərəfindən Azərbaycana yeni qırıcı təyyarələrin birgə istehsalı ilə bağlı verilən təklifi müsbət dəyərləndirirəm. Azərbaycan bu təklifi, şübhəsiz, müsbət qiymətləndirəcək.

İsrail dövləti ilə də hərbi sənaye sahəsində böyük əlaqələr qurulub. İsraillə birgə yeni növ PUA-ların istehsalına başlanacaqdır.Bundan əlavə, istər hava müdafiə sistemində, istər pilotsuz uçuş aparatları və yeni lazer silahların əldə olunması sahəsində böyük işlər və protokollar imzalanıb. Eləcə də Pakistanla böyük əlaqələr qurulur. Pakistanın İP sahəsi üzrə orduda istifadə olunan texnologiya sistemlərinin Azərbaycana gətirilməsi gündəmdədir.

44 günlük müharibədən sonra Azərbaycan hərbi sahədə qarşısına qoyduğu xüsusi planlarının həyata keçirilməsi istiqamətində çox böyük işlər görür. Bura boşalan hərb bazarında Azərbaycanın özünəmüvafiq yer tutması da daxildir.

> *44 günlük müharibədən sonra Azərbaycan hərbi sahədə qarşısına qoyduğu xüsusi planlarının həyata keçirilməsi istiqamətində çox böyük işlər görür*

> *Türkiyə Ordusu ilə Azərbaycan Ordusu bir ordu sisteminə keçidə başlayır*

**■ Emin Həsənli, hərbi ekspert:**

- Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin tövsiyəsinə və tapşırığına uyğun olaraq, Azərbaycan Ordusu Türkiyə modelinə keçir. Bu istiqamətdə xeyli addımlar atılıb. Müxtəlif qoşun növləri üzrə həm Türkiyədə, həm də Azərbaycanda birgə təlimlər keçirilir. Prezidentin son müsahibəsində bu məsələlər öz əksini tapıb. Türkiyə ilə Azərbaycan qardaş dövlətdir və bütün sahələr üzrə geniş əməkdaşlığımız mövcuddur. "Şuşa Bəyannaməsi"ndən sonra bu münasibətlər ən yüksək səviyyəyə qalxıb. Eləcə də silahlı qüvvələr sahəsində də əməkdaşlıqlar genişlənib.

Türkiyə ordusunu özünün hərbi müdafiə sənayesi hesabına təmin edir. Türkiyənin Hərbi Müdafiə Sənayesi xeyli yüksəlib. Belə ki, Hava Hücumundan Müdafiə Sistemləri, Quru Qoşunları, Dəniz Qüvvələri 20 faiz təminatdan 80 faizə qalxıb. Azərbaycan qardaş ölkə ilə müttəfiq ölkə kimi bu istiqamətdə də müsbət addımlar atır. Azərbaycanın müdafiə sənayesi var və çalışır ki, öz ordusunu təmin etsin və silahını dünya bazarına çıxara bilsin. Türkiyə ilə bu istiqamətdə birgə işlərin həyata keçirilməsi təqdirəlayiqdir. Azərbaycan bundan özünün dövlət, milli maraqları üçün yararlanır. Türkiyə Ordusu ilə Azərbaycan Ordusu bir ordu sisteminə keçidə başlayır. "Bir milət, iki dövlət, tək ordu". Yəni lazım olan zaman Azərbaycan Ordusu Türkiyə Ordusunun yanında, Türkiyə Ordusu Azərbaycanın yanında olub, müstəqilliyi uğrunda döyüşəcəkdir.

**✍ Tahirə**

## XƏBƏRİNİZ OLSUN...



■ Azərbaycanda ailə məhkəmələrinin yaradılması təklif edilir. Bu təkliflə deputat Sədaqət Vəliyeva çıxış edib. S.Vəliyeva həmçinin nikah müqaviləsi ilə bağlı da dinləmələr keçirilməsini təklif edib. "Biz nikah müqaviləsinin adını dəyişib, evlilik anlaşması kimi qanunvericiliyə daxil etməliyik. İkincisi bizim ailə məhkəmələrinə ehtiyacımız var. Mövcud məhkəmələrin ailənin niyə dağılması ilə maraqlanmağa vaxtı yoxdur", - deyə o qeyd edib.

---

■ "Dünyanın ən yaşlı insanı" titulunu daşıyan 118 yaşlı fransız rahibə Lüsile Randon dünyasını dəyişib. Bu haqda Randonun qaldığı Tulondakı qocalar evinin rəsmiləri məlumat veriblər. Lüsile Randon 11 fevral 1904-cü ildə Fransada anadan olub. O, ötən il aprelin 25-dən etibarən dünyanın ən yaşlı insanı titulunu daşıyırdı.

---

■ "Qalatasaray" rekordunu təkrarlayıb. İstanbul təmsilçisi buna Türkiyə kubokunda "Alanyaspor"u 2:1 hesabı ilə məğlub etməklə nail olub. "Qalatasaray" ardıcıl 11 matçda qələbə qazanmaqla, 1988-ci ildəki rekordunu təkrarlayıb. "Cim-bom" Super Liqanın 8, Türkiyə kubokunun 3 oyununda qalib gəlib.

---



■ "Uşaqlara qarşı zorakılıq faktları ilə bağlı məsuliyyət növünün qəbul edilməsinə çox böyük ehtiyac var". Bunu Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova deyib."Ailə Məcəlləsində uşaq nikahı, erkən nikah anlayışının tərifi verilməlidir. Eyni zamanda nikah yaşına istisna hal hesab olunan 1 yaş güzəştin ləğvi ilə bağlı təkliflərimizi hazırlayıb parlamentə vermişik. Məişət zorakılığı ilə bağlı Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı layihəmizi də təqdim etmişik".

---

■ "İneos" kimya şirkətinin rəhbəri, britaniyalı milyarder Cim Retkliff "Mançester Yunayted" futbol klubunu almağa hazır olduğunu bildirib. Bu barədə "The Times" nəşri xəbər verib. Məlumata əsasən, namizədlər arasında hərrac fevral ayında başlamalıdır. Nəticədə, "Mançester Yunayted" mövsümün sonuna qədər yeni sahibliyə keçə bilər.

---

■ Tərtərdə 1995-ci il təvəllüdlü, 29-30 həftəlik hamilə olan Türkanə Əsədovanın evdə halı pisləşib və qəflətən ölüb. Hadisə rayonun Hüsənli kəndində qeydə alınıb. Mərhumun yaxınları bildirib ki, 28 yaşlı qadın epilepsiya xəstəliyindən əziyyət çəkirmiş.

---




■ Müflis olmuş kriptovalyuta birjası FTX təxminən 415 milyon dollar vəsaitinin hakerlər tərəfindən oğurlandığını elan edib. Şirkətin hüquqşünaslarının təqdim etdikləri hesabatda qeyd olunur ki, 323 milyon dollarlıq kriptovalyuta FTX-nin beynəlxalq birjasından, 90 milyon dollar isə ABŞ birjasından oğurlanıb.

---

■ 10 noyabr 2020-ci ildə Ermənistanda baş vermiş iğtişaşlarla bağlı araşdırmalar nəticəsində daha bir neçə şəxs həbs edilib. Kütləvi iğtişaşlar zamanı Ermənistan Parlamentinin sədri Ararat Mirzoyana qarşı zorakılıq tətbiq edən şəxs və Baş nazir Nikol Paşinyana həvalə edilmiş iqamətgahdan xüsusilə iri miqyasda oğurluq edən şəxslər tutulub.

# Ukrayna silahlanır...

## Rusiya yeni səfərbərliyə hazırlaşır

**Rusiyanın Ukraynanın işğalına hesablanan müharibəyə başlamasının bir ilinin tamamlanmasına sayılı günlər qalıb. Arxada qalan müddət bir çox ziddiyyətli gedişlər, bəyanatlar, qələbələr və məğlubiyyətlərlə xarakterizə edilir.**



Öncə Kiyevi 3 günə ələ keçirəcəyini düşünən Rusiya Ordusu qarşısında sürətlə geri çəkilməyə məcbur olan Ukrayna Ordusu zaman keçdikcə təşəbbüsü ələ aldı. Bir neçə uğurlu əməliyyatlarla Xarkov, Xerson və şimal istiqamətində ruslara ağır zərbələr vurdu.

Bunun müqabilində isə ruslar Donbas və ələ keçirdikləri ərazilərdə saxta referendumlarla bu torpaqları ilhaq etdiyini açıqladı. Üçyüzminlik səfərbərlik həyata keçirdi. Qış mövsümündə hərbi əməliyyatlar səngisə də, Donetskdə ağır döyüşlər tam sürətlə davam edir. Həmçinin Rusiya Ukraynanın infrastukturunu tamamilə sıradan çıxarmaq üçün ardıcıl raket hücumları həyata keçirir.

İndi yaranmış nisbi durğunluqdan tərəflər öz hərbi potensiallarını artırmaq üçün çalışırlar. Ukraynaya hazırda ABŞ və Britaniya başda olmaqla, ən müasir silahların verilməsinə başlanılıb. Petriot sistemləri, NATO tankları, uzaqmənzilli artilleriya sistemləri, dronlara qarşı mübarizə vasitələri və s. Bunlar Qərbin Ukraynaya hərbi yardımının sadəcə çox kiçik bir hissəsidir.

Hazırda bütün dünya müharibənin bir ilinin tamalanmasına az müddətin qaldığı bir vaxtda Rusiyanın hərbi potensialını dirçəltmək üçün hansı addımları atacağını diqqətlə izləyir. Halbuki, tətbiq edilən ağır sanksiyalar fonunda Rusiyanın hərbi istehsal maşını tam gücü ilə işləyə bilmir və xeyli çətinliklrlə üzləşir. Bunu cəbhədəki rus hərbi birləşmələrinin təchizatında yaşanan problemlərdə də açıq görmək mümkündür.

Lakin Moskva öz iddialarını təmin etməkdə israrlı görünür. Bu məqsədlə ordusunun sayını daha da artırmağı planlaşdırır. Bir neçə gün əvvəl Rusiyanın müdafiə naziri Sergey Şoyqu NATO-nun hərbi potensialının artması ilə əlaqədar Rusiyanın şimal-qərbində qoşunlar qrupunun yaradıldığını açıqlayıb. Bundan əlavə, 2026-cı ilə qədər Rusiya silahlı qüvvələrinin sayı 1,5 milyon nəfərə çatdırılacaq. Ordunun genişmiqyaslı islahatları Finlandiya və İsveçin NATO-ya qoşulması ilə əlaqədar Şimali Atlantika Alyansının qarşıdan gələn genişlənməsinə cavabdır.

Rusiya Prezidenti Vladimir Putin dekabrda Şoyqunun təklif etdiyi silahlı qüvvələrin sayını cari hədəf səviyyəsindən (1,15 milyon nəfər) artırmaq planını təsdiqləyib, lakin Kreml irimiqyaslı hərbi əməliyyatların tamamlanmasının dəqiq vaxtını açıqlamayıb. Şoyqu qeyd edib ki, "genişlənmə silahlı qüvvələrin bütün qollarına təsir edəcək və onları təchiz etmək üçün yeni növ silahların tədarükü ilə uyğun olacaq".

Şoyqu nazirliyin "Teleqram" kanalında bildirib ki, Rusiya "üç motoatıcı diviziyası və iki hava hücumu diviziyası yaratmalı və bir sıra briqadaları birləşdirməli olacaq". O, həmçinin ordu sıralarının artırılması çərçivəsində "müqavilə əsasında qoşunların cəlb edilməsinə xüsusi diqqət yetirməyə" çağırıb.

Bu gedişlər müharibənin taleyinə necə təsir göstərəcək? Ukraynanın rus hərbi ekspansiyasının genişlənməsinin qarşısını almağa gücü çatacaqmı? Hazırda hər kəsi bu suallar düşündürür. Öncə rus ekspertlərin mövcud durumu necə dəyərləndirdiyinə nəzər salaq.

■ **Rusiyalı hərbi ekspert, ehtiyatda olan polkovnik Viktor Baranetsin qənaətincə, müharibə başlayandan Kiyevin malik olduğu sovet silahlarının 80-85 faizi döyüş əməliyyatları zamanı məhv edilib və ya yararsız hala düşüb.**

Ekspert qeyd edib ki, Ukrayna ordusu "pis vəziyyətdədir", lakin hələ də sovet tankları, artilleriya və hava hücumundan müdafiə sistemlərinə malikdir:

"Hər halda, indiki vəziyyətdə Qərb Ukraynaya "onlarca, yüzlərlə" ağır və digər silahlar göndərir".

Bu tədarükün məqsədinə toxunan rusiyalı hərbi ekspert bildirib:

"Kiyev hücuma hazırlaşır. "Ukrayna ordusu öz döyüş qabiliyyətini ciddi şəkildə artırır və bu, Qərbin hesabına baş verir. Kiyev hücuma keçməyə hazırlaşır, ilk növbədə, Qərb silahlarının köməyi ilə. Bunu nəzərə almalıyıq".

Bununla belə, analitik vurğulayıb ki, yüzlərlə Qərb zirehli texnikasını "həzm etmək" üçün silahlı qüvvələrə ciddi hazırlıq dövrü lazımdır. Bu arada o əmindir ki, hava hücumundan müdafiə sistemi həqiqətən də kritik mərhələdədir: "Və burada rus ordusu üçün həqiqət anı gəlir. Kiyev artıq yazda, qar yox olanda, yer quruyanda hücum planlaşdırdığını gizlətmir. Və bu, Rusiya ordusu üçün əsas məqamdır. Rusiya üçün növbəti səfərbərlik dalğasını keçirəndə Ukrayna ordusunun döyüşə, hücuma tam hazır olmasını, bütün sursatları, ərzaqları alana qədər gözləməsi cinayət olardı", - polkovnik bildirib. Baranetsin fikrincə, Ukrayna silahlı qüvvələrinə resursları bərpa etməyə və yeni hücuma hazırlaşmağa imkan verilməməlidir. Onun sözlərinə görə, bunun qarşısını almaq üçün Rusiya ordusu Soledarın ələ keçirilməsindən sonra ələ keçirilən strateji təşəbbüsdən istifadə edərək "daha da irəliləmək" lazımdır.

Biz yeni texnika, silahlar, raketlər, toplar, tanklar, döyüş sursatları alırıq, düşmənə nəfəs verməmək üçün hər şeyimiz var. İrəli!" - deyə Baranets yekunlaşdırıb.

İş ondadır ki, müharibənin hələ də sonu görünmür. Qərb müharibənin Rusiya məğlub olana qədər davam edəcəyini açıq şəkildə bəyan edir.

■ **Amerikalı politoloq və hərbi ekspert Skott Horton bildirib ki, "ABŞ-ın hiyləgər planı" Rusiyanı Ukraynadakı münaqişəyə sürükləmək və onu müstəqil oyunçu olmaqdan çıxacaq dərəcədə zəiflətməkdir.** Hortonun sözlərinə görə, ABŞ və NATO danışıqlarda maraqlı deyil - onlara Şərqi Avropada münaqişənin mümkün qədər uzun müddət davam etməsi lazımdır:

"Biz danışıqlar istəmirik, biz bu müharibəni sürükləməklə Rusiyanı zəiflətmək istəyirik".

Eyni zamanda, Horton ABŞ-ın addımlarını Əfqanıstandakı müharibə və Soyuq Müharibə dövründə kiçik münaqişələr qalaktikası ilə müqayisə edib:

"SSRİ bir neçə cəbhədə həddindən artıq gərginləşməyə və döyüşməyə məcbur oldu, bu da sonda qüvvələrini tükəndirdi və dağılmasına səbəb oldu. Əvvəlcə Ukraynadakı



üsyançıların dəstəklənməsi planlaşdırılırdı, lakin Ukrayna Silahlı Qüvvələri döyüşlərdə özünü çox yaxşı göstərdi və amerikalılar onların birbaşa dəstəyinə keçdi".

■ **Ukraynalı hərbi ekspert Sergey Qrabski isə Rusiya Federasiyasında faktiki olaraq neçə nəfərin hərbi xidmətə çağırıla biləcəyini hesablayıb. O əmindir ki, Rusiya 20 milyon insanı səfərbər etmək iqtidarında deyil.**

"Bütövlükdə Rusiya Federasiyasının insan potensialına nəzər salsaq, deyə bilərik ki, onlar ən azı iki milyon insanı cəlb edə bilər və bu, necə deyərlər, 20 milyona qədər dərslik göstəricilərinə baxmayaraq, obyektiv rəqəm olacaqdır. Əlbəttə ki, 20 milyon - bu, qeyri-realdır", - deyə o bildirib.

Qrabski, həmçinin Rusiyanın səfərbərlik imkanlarını çox da böyütməməyə çağırıb:

"Mən həmişə bu misalı gətirirəm: qismən səfərbərlik və ümumilikdə Rusiyada son bir ildə baş verənlər nəticəsində onlar faktiki olaraq bir milyona qədər, hətta daha çox işçi itirdilər, çünki bu işçilər orduya və hərbi xidmətə çağırılmışdılar. Düşünən beyinlər Rusiyadan qaçdı və bu artıq Rusiya iqtisadiyyatı üçün əvəzedilməz itkidir", - ekspert vurğulayıb.

Qrabski əlavə edib ki, səfərbər edilmiş bölmələr üçün yeni texnika və silahlarla təmin etmək, istehsal etmək, daşımaq və təmir etmək lazımdır. O vurğulayıb ki, Rusiya bu məsələlərdə yalnız özünə arxalana bilər və onun resursları məhduddur.

Britaniyanın "The Times" qəzeti Qərb kəşfiyyat məlumatlarına istinadən yazıb ki, Rusiya Federasiyası cəbhəyə 500 minə qədər adam göndərmək üçün yeni səfərbərlik dalğası elan etməyə hazırlaşır. Yaxın bir neçə həftə ərzində qərar verilə bilər.

Sentyabrda Rusiyada qismən səfərbərlik elan edildikdən az sonra müharibəyə dəstək səviyyəsi 34%-ə düşüb. Ancaq tezliklə əhəmiyyətli dərəcədə artıb. Keçmiş Kreml rəsmisi WSJ müxbirlərinə deyib ki, Kremlin müharibə ilə bağlı daxili sorğusu rusların növbəti, daha bir səfərbərliyə dözəcəklərini göstərir.

■ **Rusiyalı politoloq Sergey Markovun da fikirləri maraqlıdır:**

"Qərb elitası 2022-ci il hadisələri zamanı özünü zəif göstərdiyi üçün Rusiyanı bitirmək qərarına gəlib. Bundan əvvəl Rusiya 2014-15-ci illərdə Ukraynaya qoşun yeritmədiyi üçün özünü zəif göstərmişdi, bunu etməyə borclu idi.

Üstəlik, o, Ukraynada ictimai rəy uğrunda heç bir mübarizə aparmadı, nəticədə orada zombi ordusu formalaşdı. Döyüşlər zamanı Rusiya özünü dünyanın ikinci ordusu kimi göstərmədi, səfərbərlikdə çox gecikdi, Ukraynanın infrastrukturunu vurmaq üçün geri çəkildi. Rusiyanın zəifliyini görən Qərb Ukraynanı kifayət qədər resurslarla təmin edir və rus xalqının əli ilə - ukraynalıların rus xalqı olduğuna heç kim şübhə etmir - Rusiyanı öldürmək istəyir. Rusiyanı məhv etmək üçün bu qərar qəbul edilib və həyata keçirilir".

■ **Müharibənin sonlandırılması ilə bağlı qalmaqallı açıqlamaları ilə yadda qalan ABŞ-ın keçmiş dövlət katibi Henri Kissincerin də fikirləri ciddi müzakirələrə səbəb olub. O deyib ki, Ukraynanın NATO-ya üzvlüyü sülh bərqərar olduqdan sonra "uyğun olacaq".**

Davosda Ümumdünya İqtisadi Forumunda çıxışı zamanı o, Rusiyanın işğalından əvvəl Ukraynanın NATO-ya daxil olmasına qarşı olsa da, indi bunu "arzu olunan nəticə" hesab etdiyini bildirib. Onun sözlərinə görə, əvvəllər Ukraynanın Şimali Atlantika Alyansına daxil olmasının Rusiya ilə müharibəyə səbəb olacağından qorxurdu.

"İndi proses bu səviyyəyə çatdığından, bu şəraitdə neytral Ukrayna ideyası artıq mənasızdır. Və təsvir etdiyim prosesin sonunda NATO tərəfindən istənilən formada zəmanət verilməlidir. İnanıram ki, Ukraynanın NATO-ya üzvlüyü münasib nəticə olardı", - deyə keçmiş dövlət katibi bildirib.

Görünən odur ki, 2023-cü ildə də həm Rusiyada, həm də Ukraynada minlərlə insanın ölümünə səbəb olacaq müharibə tam gücü ilə davam edəcək. Proseslər qarşıdakı döyüşlərin daha ağır və çətin keçəcəyinə dəlalət edir. Çünki hər iki tərəfdən hərbi əməliyyatlara cəlb olunan insan resursları sürətlə artır.

Bunun fonunda cəbhə xəttinə çox böyük dağıdıcı gücə malik yeni müasir silahlar göndərilir. Bir həqiqət dəyişməz olaraq qalır. Müasir üharibələrdə əsas amil ordudakı əsgər sayı yox, tətbiq edilən silahların keyfiyyətidir. Bu məsələdə Rusiya açıq şəkildə Ukraynaya, daha doğrusu Qərbə uduzmaqdadır. Səbəb isə məlumdur.

Qərb birillik müharibə dövründə Rusiyanın hərbi potensialını xeyli dərəcədə zəiflətməyi və boşaltmağı bacarıb. Belə demək mümkündürsə, Ukrayna "məğlubedilməz" rus ordusunun ilk zərbə dalğasına görünməmiş şəkildə tab gətirdi və onun irəliləyişini minimuma endirdi. İndi hədəf zəifləmiş hücum ordusuna ağır zərbələr vuraraq onu əvvəlki mövqeyinə geri oturtmaq və ədalətli sülh danışıqlarının qapısını aralamaqdır. Təbii ki, bu məsələdə Qərbin Ukraynanı qarşıdan gələn müddətdə hansı səviyyədə dəstəkləcəyi də önəmlidir. Ağır sanksiyalar altında gözlədiyi nəticəyə hələ də nail ola bilməyən, müharibədən minimum siyasi və hərbi itkilərlə çıxmağı planlaşdıran Rusiyanın 2023-cü ilin yazına qədər Ukraynanı məğlub etmək planları isə gözlənilən qanlı toqquşmaların ilk "xəbərçi"sidir.

*✍ Azad Əliyev*

# "Vasif Talıbov siyasətçi deyildi..."

***Ötən ilin sonlarında Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Naxçıvanın Gömrük Komitəsində əməliyyat keçirərək qaçaqmalçılıq və milyonlarla vəsaitin mənimsənilməsi faktını ortaya çıxardı. Eləcə də, digər qurumlarda. Daha sonra Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbov vəzifəsindən kənarlaşdırıldı. Muxtar Respublikaya Prezidentin xüsusi nümayəndəsi təyin edildi. Naxçıvan gündəmi ilə bağlı suallarımızı ADP sədri Sərdar Cəlaloğlu cavablandırır:***



**Sərdar Cəlaloğlu,**
ADP sədri

## Müsahib

***- Naxçıvanda Ali Məclisin keçmiş sədri Vasif Talıbovun vəzifədən kənarlaşdırılması və bir çox şəxsin dövlətin milyonlarla vəsaitini mənimsəməkdə ittiham olunaraq istintaqa cəlb edilməsi məlumdur. Bu bölgənin gələcək taleyi üçün hansı yeniliklər hazırlayır?***

- Vasif Talıbov vəzifədən kənarlaşdırılıb və Prezident Naxçıvan Muxtar Respublikasının idarəçiliyini özünün nəzarətinə götürüb. Düşünürəm, orada baş verənlər təkcə iqtisadi cinayətkarlıq deyil, həmçinin siyasi məsələlərdir.

***- Vasif Talıbov dönəmi Naxçıvana nə verdi və ondansonrakı addımlar necə olmalıdır?***

- Əslinə baxsaq Vasif Talıbov siyasətçi deyildi. Onun vaxtında orada müşahidə olunan əsas iki məsələ diqqəti cəlb edib. Birincisi, yaxşı mənada Naxçıvanda ideal bir təmizlik yaradılmışdı. İkincisi, Naxçıvanda yun şəbəkəsi və digər infrastruktur istiqamətində çox ciddi işlər görülmüşdü. Amma bunların da arxasında, təbii ki, Vasif Talıbovun və onun adamlarının milyardlarla pul qazanması dururdu. Yerdə qalan məsələlər xalqın, dövlətin, millətin əleyhinə olan məsələlərdir.

Talıbovdan sonra atılacaq addımlara gəlincə, Naxçıvan Azərbaycan Dövlətinin suverenliyinə qaytarılmalıdır. Faktiki olaraq orada əhalinin işlə təmin edilməsi, sosial hüquqların bərpası təmin edilməlidir. Son 30 ildə orada kimlərin əmlakı əlindən alınıbsa, kimə qarşı ağır cinayətlər törədilibsə, hamısının haqqı bərpa olunmalıdır.

***- Naxçıvanda bu günədək baş verənlər və hazırda məlum istefa və həbslərin səbəbi nədir? Naxçıvan əhalisi məlum idarəçilik sistemində hansı hüquq pozuntuları, yaxud əksinə, hansı üstün həyatla təmin olunmuşdu?***

- Naxçıvanda indiki hadisələrin səbəbi Türkiyə Dövlətinin birbaşa müdaxiləsi ilə baş verib. Naxçıvandakı məlum hadisələrin Azərbaycan Dövlətinin, həm də Türkiyə Dövlətinin maraqlarına zidd olması, eləcə də Zəngəzur yolunun Naxçıvandan təhlükəsiz keçməsi ilə bağlı müəyyən narazılıqlar olub. Eyni zamanda, Naxçıvan rəhbərliyinin İran və Rusiya ilə separatçı, gizli əlaqələrinin olduğunu ehtimal edirəm.

Həbslər isə oradakı hakimiyyət dəyişikliyinə qeyri-siyasi don geyindirmək məqsədi güdür. Bir səbəb budur.

Digər məsələ; Naxçıvanda istintaq altında adamların əmlaklarını qeyri-qanuni əllərindən alıblar, sökdürüblər, insanların haqları pozulub....

***- İnsanlar arasında Naxçıvan, az qala, "Bir qalanın sirri" filmindəki "Simnar xanın Qanlı qalası" kimi xatırlanırdı. Belə fikirləri yaradan səbəb nədir?***

- Naxçıvan anklav ərazi idi və Azərbaycanla əlaqələri kəsilmişdi. Bir tərəfdən İran, digər yandan da Ermənistanla həmsərhəddir. Təbii ki, son 30 ildə Naxçıvanla bağlı informasiyanın ötürülməsinin qarşısı alınıb və Naxçıvanla bağlı məlumatların Azərbaycan xalqına çatdırılmaması ona gətirib çıxarmışdı ki, doğrudan da Naxçıvan "Sirli Qala" şəklini alırdı. İnsanlar orada nə baş verdiyindən, hansı proseslərin getdiyindən məlumatsız idilər. Xüsusən müəyyən qrup naxçıvanlının Azərbaycan hakimiyyətində təmsil olunması belə bir illüziya yaratmışdı ki, Naxçıvan camaatı Azərbaycanın əsas hissəsindən yaxşı yaşayır. Əslində, Azərbaycanda insan hüquqlarının pozulması ən çox Naxçıvanda baş vermişdir.

***- Bir naxçıvanlı olaraq, siz əvvəllər Naxçıvana gedəndə orada qəbul etmədiyiniz hansı çətinliklə qarşılaşırdınız, hansı problemlər mövcud idi?***

- Naxçıvana gedəndə ən çox diqqətimizi çəkən məsələ insanların həddən artıq qorxu içində yaşamaları idi. İnsanların öz hüquqlarını müdafiə etməkdən çəkinmələri, ümumiyyətlə, yaşamaq üçün heç bir şəraitin yaradılmaması və əhalinin böyük bir hissəsinin Naxçıvanı tərk etməsi daha çox diqqət cəlb edib. Bu məsələlər olduqca ciddi problemlər yaradırdı. Xüsusən də ailələrin dağılması, əxlaqi, mədəni mühitin məhv edilməsi, tarixin məhv edilməsinə aparırdı. Yəni mən orada yüzlərlə problemi müşahidə edirdim. Dəfələrlə bu barədə çıxışlarımız olub. Təəssüf ki, bu çıxışlarımıza heç kəs məhəl qoymurdu.

***- Naxçıvanın idarəetməsi Azərbaycanın digər bölgələrindən nə ilə fərqlənirdi?***

- Naxçıvanda idarəetmə parlament üsulu idi, Azərbaycanda isə Prezident idarəetmə üsuludur. Bu, əsas prinsipial fərq idi. Bu da ona imkan verirdi ki, Naxçıvanda Azərbaycandan tamamilə fərqli bir idarəetmə sistemi olsun.

***- Zəngəzur dəhlizi açılandan sonra Naxçıvanın taleyi necə olacaq?***

- Zəngəzur dəhlizi açılacağı və həmin yol işləyəcəyi təqdirdə Naxçıvanda çox ciddi iqtisadi yüksəliş olacaq. Ən azı, həmin yolun ətrafında infrastruktur yaradılacaq, əhali orada bu və ya başqa şəkildə xidmət sahələrində fəaiyyət göstərəcək. Eyni zamanda, həmin yol Naxçıvan ərazisindən keçdiyinə görə, onun büdcəsinə torpaqhaqqı olaraq gəlir daxil olacaq. Naxçıvanda ticarət genişlənəcək, Naxçıvan özü bir logistika mərkəzi olacaq. Naxçıvandan sonra, artıq Avropaya gedən yol açılır. Bu baxımdan, Naxçıvanın özünün də statusu həddən artıq artacaq.

***- Naxçıvanın muxtariyyətinin ləğvi mümkündürmü və bu, bütövlükdə nə vəd edir?***

- Azərbaycanın yeni Konstitusiyasında Naxçıvana Muxtar Respublika deyil, muxtar dövlət statusu veriblər. Bu da əvvəlki sovet dönəmində olan statusdan tamamilə fərqlənir. Bu, Azərbaycan Konstitusiyasında nəzərdə tutulan unitarlıq prinsipinə ziddir. Bu, ən azı, Konstitusiyaya uyğun olmadığına görə, "Naxçıvan Muxtar Dövləti" anlayışı Konstitusiyadan çıxarılmalıdır və mənə elə gəlir çıxarılacaq. Bu da ləğv olunduqdan sonra, Naxçıvan camaatından, ən azı, Azərbaycan camaatı kimi idarəçilik yükü götürüləcək.

Naxçıvan Muxar Dövlət olduğuna görə, naxçıvanlılar hər məsələdə Azərbaycanın digər vətəndaşlarından fərqli olaraq, ikiqat idarəçi orqanların nəzarəti altındadır. Məsələn, Naxçıvan camaatı həm Naxçıvan Daxili İşlər Nazirliyinin, həm də Azərbaycan Daxili İşlər Nazirliyinin nəzarəti altındadır. Eləcə də digər nazirliklər də bu qəbildəndir. Bu faktın özü Naxçıvan camaatını Azərbaycanın digər rayonlarında yaşayan əhalidən qeyri-bərabər hüquqi vəziyyətə salır. İnsanlar ikiqat idarəetmə ilə yüklənirlər.

*✍ Tahirə Qafarlı*

*"Zəngəzur dəhlizi açılacağı və həmin yol işləyəcəyi təqdirdə Naxçıvanda çox ciddi iqtisadi yüksəliş olacaq*

*Son 30 ildə orada kimlərin əmlakı əlindən alınıbsa, kimə qarşı ağır cinayətlər törədilibsə, hamısının haqqı bərpa olunmalıdır*

*Naxçıvana gedəndə ən çox diqqətimizi çəkən məsələ insanların həddən artıq qorxu içində yaşamaları idi*

# Molla rejiminin Azərbaycan düşmənçiliyi

***Azərbaycan Ordusu iki il öncə cəmi 44 gün sürən əks-hərbi əməliyyatlarla 30 il Ermənistanın işğalında qalmış torpaqlarımızı azad edəndən bəri İran hakimiyyəti ölkəmizə qarşı qərəzini açıq şəkildə göstərir. Hətta göstərir nədir, dəfələrlə hərbi təlim adı altında Azərbaycana qarşı əsl düşmən sifətini üzə çıxarıb. Bu günlərdə isə İranın XİN başçısı Hüseyn Əmir-Abdullahian Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşdə İran-Türkiyə münasibətlərinin inkişafı, o cümlədən, Azərbaycan d daxil olmaqla, üçtərəfli formatda görüşün keçirilməsi zərurətindən söz açıb. Təbii ki, bu formatda görüşlər əvvəllər də davam edirdi, amma 44 günlük müharibədən sonra İranın iç üzü tam gözlər önünə çıxdıqdan sonra, münasibətlərin axarı kəskin dəyişdi.***

## Təhlil

### Vaxtında verilən qərar

**Təbii ki, fars dövlətinin yersiz və mənasız davranışı Azərbaycanı qətiyyən qorxutmadı, əksinə, müstəqillik illəri boyunca Tehranın xətrinə dəyməmək üçün göstərdiyi sakit, loyal xarici siyasətini silkələdi.** Fars dövləti Ermənistanı qorumaq adı altında Azərbaycan-Türkiyə birliyini gücləndirəcək, məsələn, Zəngəzur dəhlizi layihəsinə qarşı çıxmaqla, canı-canlarından, qanı-qanlarından olan xristian erməni qardaşlarının yanında olduqlarını sübut etmək üçün sərhədimizin o tayında konsulluq açan İrana ən tutarlı cavabı vaxtında və yerində Prezident İlham Əliyev verdi - İsraildə Azərbaycan Səfirliyi açıldı. Bundan daha əvvəl isə İsrail şirkətləri Azərbaycanın ermənilərin işğalından azad edilmiş torpaqlarda böyük tikinti-quruculuq işlərinə cəlb olunduğunu isə ən azından, İranda hər kəs çox yaxşı bilir. Ümumiyyətlə, müstəqilliyini bərpa etdiyi ilk gündən bəri Azərbaycanın azad və suverin olmasına qarşı siyasət yürütmüş və bu siyasətini fərqli ruhanilərin, hətta zaman-zaman generallarının diliylə mesaj göndərən İran son anadək dirəndi, amma Azərbaycan məhz Türkiyənin ciddi dəstəyi ilə onların məkrli siyasətini iflasa uğrada bildi.

### Xamnei öz kimliyinə qarşıdır

**Bu gün İranda molla rejimi üçün çətin bir dilemma var. Bütün dünyada İslamı və müsəlmanları "dəstəklədiyini" və İmam Mehdinin "qayıdışına hazırlıq" uğrunda mübarizədə şiələrə rəhbərlik etdiyini bildirən İran rejimi son 30 ildir xristian Ermənistan dövləti ilə birlikdə şiələrə qarşı mübarizə aparıb və bu mübarizə indi də davam edir.** Bəli, iranlıların öz təbirlərincə desək, əhalisinin çoxu şiə olan azərbaycana qarşı İran-Ermənistan ittifaqı üç onillikdir mübarizə, hətta müharibə aparır, bu müddətdə üst-üstə 40 min şiə azərbaycanlını qətlə yetiriblər.

Maraqlıdır, hər üç iranlıdan birinin məhz Azərbaycan türkü olduğu, hətta dini rəhbər Əli Xamneinin özünün də azərbaycanlı olduğu İranda hakimiyyət niyə məhz düşmən tərəfi - Ermənistanı dəstəkləyir? Hesab edirəm ki, bunun ilk əsas səbəbi istər Azərbaycan Respublikasında yaşayan, istərsə də İrandakı azərbaycanlıların şiə olmalarına baxmayaraq, sünni Türkiyə ilə qardaşlıq nümayiş etdirməsidir. Hətta düzgün seçimdir. Azərbaycan türkləri və ümumiyyətlə, türk milləti tarixən dini inancların əsarətində deyil, döyüş meydanlarında, at belində igidlik göstərməklə yaşamağa öyrəşib. Türk milləti üçün bütün hallarda din ikinci dərəcəlidir, ilk və əsas olan amil isə milli mənsubiyyət, yəni türk kimliyidir.

Xamneinin Azərbaycan türkü olmasına gəlincə, bu adamın Azərbaycan dilinin ikinci rəsmi dil olmasına, təhsil və mədəniyyətə inteqrasiyasına dəstək verməməyi bir yana, heç özü ondan ictimai yerlərdə istifadə etmir. Üstəlik, kürdlər, türkmənlər, ərəblər və digər azlıqlar kimi Güney Azərbaycan türklərinin dilini tanımır, adət-ənənələrini rədd edir və sair. Onun üçün yeganə tələb budur: hamı şiə olmalıdır, vəssalam.

### Sünnilərə qarşı şiə silahı

**İran həmişə müstəqil Azərbaycan Respublikasına itirilmiş ərazi kimi baxıb və ya "İranın bir hissəsi olmalı, ya da ən azından onun təsir dairəsində qalmalıdır" kimi yanaşıb. Bu gün bir çox yüksəkçinli İran siyasətçisi belə hesab edir ki, Azərbaycanın "şiə xalqı" İranla bir olmaq istəyir, amma "israilpərəst iqtidarı" buna imkan vermir. Hansı ki, bu, sadəcə, Orta əsrlər səviyyəsində düşünən cahil fanatlarının özünətəskinliyidir.**

Bu yerdə bir məqama diqqət çəkim ki, İran heç bir yerdə müsəlmanları müdafiə etməyib və etmir də. Xəritə üzərində İranın təsir göstərmək istədiyi dövlətlərə və münaqişələrin motivlərinə nəzər salın. İran İraqda məhz şiə qrupları sünni iraqlılara qarşı dəstəkləyib və bu gün də şiələrin sünnilər üzərində birmənalı hakimiyyətinin qorunmasına çalışır. İran Yəməndə məhz şiə qrupları (husiləri) sünnilərə qarşı silahlandırır və ölkənin legitin hakimiyyətini devirməklə şiə diktaturası yaratmağa cəhd edir.

İran Suriyada şiələri, hətta özlərini müsəlman saymayan druz tayfaalrını sünnilərə qarşı dəstəkləyir. İran Azərbaycanda da şiə cəhalətinin birmənalı şəkildə güclənməsinə və yenilməz güc olmasına çalışır. İran Əfqanıstanda, Pakistanda da azsaylı şiələri himayə edir, onların nəzarətindəki qanunsuz silahlı qrupları gizli şəkildə dəstəkləyir. Məqsəd sünnilərə zərər vurmaqdır.

Qeyd edim ki, bir vaxtlar İranın Azərbaycandakı Mədəniyyət Mərkəzinin və sonradan İran Səfirliyinin dini işlər üzrə müşaviri olmuş höccətülislam Əliəkbər Ocaqnejad şəxsən mənə dedi ki, şiəlik İranın siyasi strategiyasıdır. Yəni bəzilərinin düşündüyü kimi, şiəlik İranda ilahi qüdrət rəmzi yox, siyasi alətdir. Elə bu səbəbdən də məzhəb birliyi nümayiş etdirərək İranın siyasi çağırışlarının qulu olan qəflət yuxusundan ayılmalıdırlar. Ən azından İran nağılını unutmalı, məzhəbini azərbaycançılıq üzərindən inkişaf etdirməlidir.








### İfşa edilən casus şəbəkəsi

**Yuxarıda qeyd etdiyimiz kimi, İran hər zaman Azərbaycanı ya öz ərazisinin bir parçası kimi görüb, ya da buna heç olmasa, Azərbaycanın zəif, geridəqalmış aqrar ölkə olmasına çalışıb.**

Bu arzusunu gerçəkləşdirmək üçün isə Qarabağ münaqişəsinin həll olunmadan müddətsiz şəkildə qalması Tehranın siyasətinə cavab verirdi. Həm də təbii sərvətlərlə zəngin, üstəlik, strateji geosiyasi mövqeyinə görə dünyanın diqqətində olan Azərbaycanın iqtisadi inkişafını ləngidəcək başqa səbəb yoxdur deyə, bu gün də İran Zəngəzur dəhlizi layihəsinə qarşı çıxmaqla nəsə etməyə çalışır. Amma bədbəxt ölkənin başçıları bilmir ki, Azərbaycan bugünkü iqtisadi qüdrətini məhz Zəngəzur dəhlizi olmadan qazanıb.

Hər şeydən əli üzülən İran müstəqilliyi dövründə Azərbaycanda (eləcə də Gürcüstanda) çox sayda "özünəbağlı xidmətçilər və beynəlxalq dillə desək, casuslar yetişdirib. Bunlar yalnız İranda təhsil almış ruhanilər deyil, mədəniyyət və ədəbyyat sahəsində, ticarətdə və digər iqtisadi sahələrdədir. Ən böyük dəstəkçi qüvvə isə aztəminatlı əhali arasındadır. Hansı ki, vaxtilə 50 minədək insana humanitar yardım göstərən İmdad Komitəsi məhz bu niyyətlə yaradılmışdı. Düzdür, son vaxtlar Tehranın açıq düşmənçiliyinə dözməyən Azərbaycanda bir sıra anti-addımlar atılır.

Məsələn, İran kəşfiyyatının gözlə görünən simalarından Ocaqnijad deportasiya edildi, İran tərəfindən Suriyada terror aktları təşkil etmək üçün təlim keçmiş, fəaliyyəti yasaqlanmış İslam Birliyi Hərəkatının 19 üzvü, habelə qadağan olunmuş radikalizm yönümlü dini nəşrləri Azərbaycana qaçaqmalçılıq yolu ilə gətirdiklərinə görə saxlanılıb. Bundan başqa, Azərbaycanın təhlükəsizlik xidməti, həmçinin İrandakı molla rejiminin ardıcılları olan azərbaycanlıların yaratdığı WhatsApp qruplarını da ifşa edib və sair. Eyni zamanda, təhlükəsizlik xidməti hərbi təlimlər, qurğular və avadanlıqlar, o cümlədən İsrail və Türkiyənin pilotsuz təyyarələri, həmçinin enerji və obyekt infrastrukturu ilə bağlı kəşfiyyat məlumatları toplamaq üçün İranın xüsusi xidmət orqanları tərəfindən təlim keçmiş İran casus şəbəkəsinin 5 üzvünü həbs edib.

Xatırlayırsınızsa, SOCAR-ın Xəzər dənizi neft donanmasının kapitanı da tutuldu. Niyə, çünki o, İranın Qum şəhərində dini təlim keçibmiş və Azərbaycanda fəaliyyət göstərən xarici şirkətlər, hərbi təlimlərin keçirildiyi yer, Azərbaycan Hərbi Dəniz Qüvvələrinə və dənizdəki neft platformalarına çatdırılan mallar haqqında məlumat toplamaq vəzifəsini yerinə yetirirmiş.

### Yersiz NATO bəhanəsi

**İran bütün bu uğursuzluqlardan sonra öz zəifləmiş mövqeyində çapalayarkən qeyd edir ki, Zəngəzur dəhlizinin timsalında, İranın şimal sərhədi boyunca NATO-nun keçid xətti yaradılır və ssenari müəllifləri ABŞ, Böyük Britaniya və İsraildir.** Onlar isə bu layihənin gerçəkləşməsinə imkan verməyəcəklər. NATO məsələsini isə ona görə ortaya atırlar ki, Qərbin Qafqaza gəlişinə qarşı çıxan Rusiyanı məsələyə qatsınlar. Amma ötən il iyulun 22-də Rusiya, İran və Türkiyə rəhbərlərinin Tehran görüşündə bu "narahatlığını" dilə gətirən Əli Xamnei başa düşdü ki, Zəngəzur dəhlizi layihəsi Rusiyanı ya narahat etmir, ya da ümumiyyətlə, bu, onlar üçün prioritet məsələ deyil. Yəni Türkiyə ilə Azərbaycanın, eləcə də bu layihəyə dəstək olan Qərbin və Orta Asiyanın mövqeyi qətidir və köklü amillərlə bağlıdır. Üstəlik, bu özünü dekabrın 14-də Türkmənistanın Türkmənbaşı şəhərində keçirilən, Ərdoğanı Azərbaycan Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovla bir araya gətirərək, qazın Avropaya nəqlini müzakirə edən sammitdə özünü büruzə verdi

İranın Azərbaycanla sərhəddə keçirdiyi hərbi təlimlər səbəbindən Arazın güney sahillərində yerləşdirdiyi "İnqilab keşikçiləri"nin 10 min yaraqlısı indi də oradadır. Ancaq bunlar bizi qorxutmur. Ən azından, İranın keçmişdənqalma silah və hərbi texnikasına qarşı Azərbaycan Türkiyə və İsrail istehsalı olan ən müasir döyüş vasitələri ilə hərbi təlim keçib, eynilə İranın etdiyi kimi, Araz çayını keçmək kimi bir məşqi də uğurla başa vuraraq öz qüvvəsini nümayiş etdirdi.

Bütün hallarda, İranın Azərbaycana qarşı düşmənçiliyi barıt olub yanmaqdan başqa heç nə ilə özünü büruzə verə bilməyəcək. Ən azından İran Şuşa Bəyannaməsində qeyd olunan məqamları əzbər bilir.

Bəyannamədə qeyd olunub ki, "Üçüncü ölkə və ya ölkələr tərəfindən onlardan hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, toxunulmazlığına və ya beynəlxalq səviyyədə tanınmış sərhədlərinin təhlükəsizliyinə qarşı təhdid və ya təcavüz aktı" baş verərsə, Azərbaycan və Türkiyə "bu təhlükəni və ya təcavüzü birlikdə aradan qaldırmalıdır".

Sonda qeyd edim ki, İranın daxildə və xaricdə üzləşdiyi təhlükələr nə olursa-olsun, İslam Respublikasının Azərbaycanın Ermənistanla münaqişəsi ilə bağlı dilemması, müsəlmanları dəstəkləmək və şiələrə rəhbərlik etmək iddialarında rejimin gizli siyasətini ifşa etdi. Bu rejimin məqsədi nə İslam, nə də şiədir - öz xalis mənfəətləridir. Şiə ölkəsi İranın səyləri Mehdinin deyil, Fars İmperiyasının qayıdışı üçündür. Ən çox itirənlər isə bu təhrif edilmiş rejimlə eyni yolu gedənlər olacaq...

***✍ Vüsal Tağıbəyli***

---



**■ Jurnalist Cəmil Məmmədli saxlanılıb. Bu barədə APA-ya Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Quba regional qrupunun baş inspektoru, polis leytenantı Xəyal Talıbov məlumat verib.**

Bildirilib ki, Məmmədli Cəmil Qiyas oğlu başlanmış cinayət işi üzrə saxlanılıb. Hazırda zəruri istintaq hərəkətləri davam etdirilir. Qeyd edək ki, Cəmil Məmmədli 15 dekabr 2022-ci ildə rayon sakini C. Ağabalayevlə münaqişə zamanı onun ünvanına nalayiq ifadələr işlədərək vətəndaşlar üzərində zor tətbiq etmək hədəsi ilə cəmiyyətə açıqca hörmətsizlik ifadə edən hərəkətlər edərək ona əl və ayaqla xəsarətlər yetirib və onun anasının bədən nahiyəsinə zərbələr endirməklə xuliqanlıq əməli törətməsinə əsaslı şübhələr müəyyən edilib.



**■ Pentaqon müharibədə Ukraynanın artilleriya mərmilərinə olan ciddi ehtiyacını ödəməyə kömək etmək üçün ABŞ-ın İsraildəki sursat ehtiyatından istifadə edir. Bu barədə "New-York Times" ABŞ və İsraildəki məlumatlı mənbələrə istinadən yazıb.**

Nəşrin xəbərinə görə, bu hərbi ehtiyat anbarı Pentaqonun Yaxın Şərqdəki münaqişələrdə istifadə etməsi üçün silah və sursatla təmin olunur. ABŞ həmçinin, fövqəladə hallarda İsrailə bu ehtiyatdan istifadəyə icazə verib: "Ukraynanın Sovet dövründən qalma silahları üçün döyüş sursatı azalıb və ölkə əsasən, ABŞ və digər Qərb müttəfiqləri tərəfindən bağışlanan artilleriya və güllələrdən istifadə etməyə başlayıb.



**■ Yanvar ayının 20-si - Ümumxalq Hüzn Günündə Bakı Metropoliteninin iş rejimində dəyişikliklər ediləcək.**

Qanlı Yanvar hadisəsinin ildönümündə Bakı metropoliteninin "20 Yanvar", eləcə də Şəhidlər xiyabanını ziyarət edənlərin daha çox istifadə etdiyi "İçərişəhər" və "Elmlər Akademiyası" stansiyalarında gücləndirilmiş iş rejimi tətbiq olunacaq. Qeyri-iş günü olsa da, ehtiyat qatarlar xüsusi qaydada nəzərdə tutulacaq və zərurət yaranacağı təqdirdə onların xəttə verilməsi təmin ediləcək. Metropolitenin çoxminlik kollektivinin nümayəndələri gün ərzində şəhidlərimizin əbədi xatirəsinə ehtiramını ifadə edərək, Şəhidlər xiyabanını ziyarət edəcək.



**■ Azərbaycan-İran dövlət sərhədinin işğaldan azad olunmuş 132 km.-lik hissəsinin nəzarət altına götürülməsi nəticəsində bu ərazidən keçən narkotrafikin qarşısı alınıb.**

Bu barədə Dövlət Sərhədi Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev DSX-in 2022-ci ildə xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş hesabat müşavirəsində deyib: "Ermənistanla dövlət sərhədinin Zəngilan, Qubadlı rayonları ərazisindən və Laçın rayonunun bir hissəsindən keçən 198,7 km-lik hissəsində sərhədlərimizin etibarlı müdafiəsi və mühafizəsi sisteminin təmin edilib.



**■ Milli Məclisin deputatı Jalə Əliyeva parlamentdə ulu öndər Heydər Əliyevə həsr olunan dinləmələrin keçirilməsini təklif edib.**

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin bu gün keçirilən iclasında J.Əliyeva ümummilli lider Heydər Əliyevin qadınların cəmiyyətdə önəmli mövqe tutması istiqamətində gördüyü işlərdən, xidmətlərindən danışıb. O qeyd edib ki, ümummilli liderin xalq qarşısında xidmətləri əvəzsizdir.

"Ulu öndərin qadın siyasəti və qadınların cəmiyyətdə əhəmiyyətli mövqe tutmasında çoxsaylı xidmətləri var. Odur ki, təklif edirəm ki, komitənin yaz sessiyası müddətində keçiriləcək iclaslarda Heydər Əliyevə həsr olunan dinləmələr keçirilsin", - deyə deputat bildirib.



**■ 2022-ci il ərzində Energetika Nazirliyi və tabeli qurumlara 6733 vətəndaş müraciəti daxil olub. Müraciətlərdən 5740-ı müvafiq qaydada icra olunub, 392-si icradadır. 601 müraciət isə məlumat xarakterlidir.**

Müraciətlər əsasən elektrik enerjisi və təbii qaz təchizatı, elektrik enerjisi şəbəkəsinə qoşulma və texniki şərtin verilməsi, elektrik qurğu və avadanlıqlarının vəziyyəti, borc və cərimələr, sayğaclaşma, bərpa olunan enerji, icazələr, işlə təminat, təşəkkür və digər mövzularla bağlı olub. Hesabat dövründə Nazirlik və tabeli qurumların rəhbər vəzifəli şəxsləri tərəfindən 254 vətəndaş qəbul edilib və müraciətlərdə qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

# Yeni sosial dəstək paketi

**_Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi, rifahının yüksəldilməsi dövlətin sosial-iqtisadi siyasətinin əsas prioritetlərindəndir. Son illərdə bu istiqamətdə ciddi addımlar atılıb, bütün sahələrdə çalışan insanların əməkhaqları, o cümlədən, pensiyalar, təqaüdlər, sosial müavinətlər artırılıb. Prezident İlham Əliyevin son sosial paket çərçivəsində imzaladığı sərəncamlar vətəndaşların rifahının yüksəlməsi, gəlirlərinin artması baxımından növbəti əhəmiyyətli addımdır. Bu addımlar İlham Əliyevin siyasətinin ana xəttini əhalinin rifahının təminatı təşkil etdiyini bir daha təsdiqləyir._**



## Cəmiyyət

Qeyd edək ki, bu ildən son beş ildə Azərbaycanda artıq dördüncü olmaqla, 1,9 milyon insanın rifahına dəstək məqsədli yeni sosial islahat paketi icra olunur. 2018-2022-ci illərdə 4 milyon insanı əhatə edən 3 islahat paketi üzrə əlavə olaraq illik 6 milyard manat, hazırkı yeni sosial islahat paketi üçün də illik əlavə olaraq daha 750 milyon manat əlavə vəsait ayrılacaq. Əvvəlki sosial islahatlar kimi, bu yeni sosial islahatların da əhatəliliyi ilə seçildiyini, ən həssas əhali qruplarından olan insanlara yönələn sosial ödənişlərin, o cümlədən 810 min insanın müavinət və təqaüdlərinin növbəti dəfə artırıldığını xüsusi qeyd etmək olar. Təbii ki, hər bir sosial islahat mərhələsində həmin qrupların sosial müdafiəsi, onlara ünvanlanan müavinət və təqaüdlərin artırılması, həmçinin bu sosial ödəniş növlərinin əhatə dairəsinin genişləndirilməsi, yeni sosial ödəniş növlərinin təsis olunması ön planda olur. 2018-ci illə müqayisə etdikdə də sosial müavinət və təqaüdlər üçün ayrılan illik vəsait o zaman 300 milyon manat idisə, artıq həmin məbləğ 1,5 milyard manatı ötür ki, bu da həmin istiqamətə ayrılan vəsaitlərdə 5 dəfədən çox artım deməkdir.

“

*Bütün bu işlər Qarabağ və Zəngəzurda həyata keçirilən abadlıq və quruculuq işləri, ordumuzun müdafiə qabiliyyətinin gücləndirilməsi fonunda həyata keçirilir*

### 2023-cü il - yeni sosial islahat mərhələsi

**Əvvəlki illərdə olduğu kimi, bu il də Prezident İlham Əliyevdən həssas qruplara növbəti dəstək gələrək onların müavinət və təqaüdləri artırıldı.**

Dövlət başçısının imzaladığı yeni Fərman və Sərəncamlar 2023-cü il üzrə yeni sosial islahat paketi çərçivəsində əhalinin rifahının yaxşılaşdırılması, bir sıra kateqoriyalara, o cümlədən şəhid ailələrinə, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə və b. yönələn sosial ödənişlərin artırılması istiqamətində növbəti mühüm addımların atılmasını təmin edir.

İmzalanmış yeni Fərman və Sərəncamlara əsasən, 2023-cü ilin 1 yanvarından:

*Şəhid ailəsi üçün Prezidentin aylıq təqaüdü - 600 manata çatdırılır;*

*Müharibə, 20 Yanvar, hərbi xidmət vəzifələrini yerinə yetirməklə və Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarının:*

*81-100 faiz pozulmasına görə (I dərəcə) - 500 manata,*

*61-80 faiz pozulmasına görə (II dərəcə) - 400 manata,*

*31-60 faiz pozulmasına görə (III dərəcə) - 330 manata çatdırılır;*

*Uşağın anadan olmasına görə birdəfəlik müavinət - 500 manata çatdırılır;*

*Dəfn üçün birdəfəlik müavinət - 500 manata çatdırılır;*

*Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün birdəfəlik müavinət - 300 manata çatdırılır;*

*Əlilliyi olan şəxslərə müavinət, orqanizmin funksiyalarının:*

*81-100 faiz pozulmasına görə (I dərəcə) - 270 manata,*

*61-80 faiz pozulmasına görə (II dərəcə) - 220 manata,*

*31-60 faiz pozulmasına görə (III dərəcə) - 150 manata çatdırılır;*

*Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) gözdən əlilliyi müəyyən edilmiş şəxslərə Prezidentin aylıq təqaüdü -300 manata çatdırılır;*

*Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Prezidentin aylıq təqaüdü -200 manata çatdırılır;*

*1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına Prezidentin aylıq təqaüdü -330 manata çatdırılır;*

*Yaşa görə müavinət - 220 manata çatdırılır;*

*Ailə başçısını itirməyə görə müavinət (hər ailə üzvü üçün) - 120 manata çatdırılır;*

*Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə (ünvanlı sosial yardım alan) hər uşağa görə müavinət - 100 manata çatdırılır;*

*Beşdən çox uşağı olan qadınlara hər uşağa görə müavinət - 105 manata çatdırılır;*

*Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə (I dərəcə) və 18 yaşınadək əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü - 100 manata çatdırılır;*

*Əsas iş yeri üzrə elm və təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən pensiyaçılara Prezidentin aylıq təqaüdü:*

*elmlər doktoru elmi dərəcəsinə görə - 500 manata,*

*fəlsəfə doktoru elmi dərəcəsinə görə - 300 manata çatdırılır;*

*Fəxri adlara layiq görülmüş şəxslərə aylıq təqaüd:*

*“Xalq” fəxri adına görə - 200 manata,*

*“Əməkdar” fəxri adına görə - 150 manata çatdırılır;*

*Prezidentin fərdi təqaüdü - 1500 manata çatdırılır;*

Yeni Fərman və Sərəncamlarla ümumilikdə 660 min nəfərə yönələn sosial ödənişlərin artırılması təmin edilir.

### Sosial islahat çərçivəsində kimlərin əməkhaqqı artıb?

**Yeni sosial paket çərçivəsində dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda da əməkhaqları artırılıb.** Belə ki, Prezident İlham Əliyevin yeni Sərəncamı ilə dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2023-cü il yanvarın 1-dən orta hesabla 15 faiz artırılıb.

**Həmin təşkilatlar aşağıdakılardır:**

*Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Aparatı, Gəncə bölməsinin Aparatı;*

*Heydər Əliyev Mərkəzi;*

*“Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzi;*

*Azərbaycanda Atatürk Mərkəzi;*

*Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri;*

*Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu;*

*Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi;*

*Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Aparatı;*

*Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi;*

*Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi;*

*Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu;*

*Mədəniyyət Nazirliyinin tabeliyində Quba şəhərində “Soyqırımı memorial kompleksi”;*

*Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Aparatı;*

*Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi;*

*Dövlət Turizm Agentliyinin Milli Kulinariya Mərkəzi;*

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu;*

İcra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıq.

### Artımlar doktorant və tələbələrə də şamil olunacaq

**Prezident İlham Əliyevin yeni Fərman və Sərəncamı ilə doktorant və tələbələrin təqaüdləri də artırılıb.** Yeni Fərmanla 2023-cü il yanvarın 1-dən ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 275 manata çatdırılıb. Həmçinin dövlət başçısının yeni Sərəncamı ilə dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri 2023-cü il yanvarın 1-dən:

**Doktorantura pilləsi üzrə:**

*elmlər doktoru hazırlığı üzrə doktorantlar üçün - 400 manata,*

*fəlsəfə doktoru hazırlığı üzrə doktorantlar üçün - 240 manata çatdırılır.*

*Ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasında:*

*magistratura səviyyəsi üzrə akademik göstəriciləri*

*91-100 bal olan tələbələr üçün - 195 manata,*

*71-100 bal olan tələbələr üçün - 160 manata,*

*51-100 bal olan tələbələr üçün - 110 manata çatdırılır;*

*bakalavriat səviyyəsi üzrə akademik göstəriciləri*

*91-100 bal olan tələbələr üçün - 175 manata,*

*71-100 bal olan tələbələr üçün - 145 manata,*

*51-100 bal olan tələbələr üçün - 100 manata çatdırılır;*

“

*Bu fakt bir daha təsdiqləyir ki, əhalinin sosial rifahının təminatının yüksəldilməsi Prezident İlham Əliyevin siyasətinin ana xəttini təşkil edir*

*Orta ixtisas təhsili müəssisələrində akademik göstəriciləri:*

*91-100 bal olan tələbələr üçün - 100 manata,*

*71-100 bal olan tələbələr üçün - 80 manata,*

*51-100 bal olan tələbələr üçün - 66 manata çatdırılır;*

*Peşə təhsili müəssisələrində akademik göstəriciləri:*

*“5” (yüksək texniki peşə təhsili səviyyəsində 91-100 bal) olan tələbələr üçün - 100 manata,“4” və “5” (yüksək texniki peşə təhsili səviyyəsində 71-100 bal) olan tələbələr üçün - 80 manata,*

*“3” - “5” (yüksək texniki peşə təhsili səviyyəsində 51-100 bal) olan tələbələr üçün - 66 manata çatdırılır.*

Bu artımlar ümumilikdə 150 minədək doktorant və tələbəni əhatə edir.

### Maaşlar 19 dərəcə üzrə artacaq

**Yeri gəlmişkən, Prezidentin Sərəncamına əsasən, minimum aylıq əməkhaqqının 1 yanvar 2023-cü ildən 345 manata çatdırılması ilə əlaqədar Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə işləyənlərin tarif (vəzifə) maaşlarının da bu Sərəncama uyğunlaşdırılması üçün həmin işçilərin əməyinin ödənilməsinin yeni Vahid Tarif Cədvəlini təsdiq edib.** Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən verilən məlumata görə, əməkhaqları Vahid Tarif Cədvəli əsasında ödənilən işçilərin sırasına dövlət büdcəsindən maliyyələşdirilən sosial, elm, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışanlar daxildir. 19 pillədən ibarət yeni Cədvəldə ilk pillə üzrə əməkhaqqı 300 manatdan 345 manata çatdırılmaqla digər pillələrdə də maaşlar yeni artımlarla əks olunub. 18 dərəcə üzrə maaşlar minimum əmək haqqı məbləğindən daha yüksəkdir.

**Beləliklə artımlar belədir:**

*1-ci dərəcə üzrə: 300 manatdan 345 manatadək artım*

*2-ci dərəcə üzrə: 312 manatdan 359 manatadək artım*

*3-cü dərəcə üzrə: 325 manatdan 374 manatadək artım*

*4-cü dərəcə üzrə: 338 manatdan 389 manatadək artım*

*5-ci dərəcə üzrə: 353 manatdan 406 manatadək artım*

*6-cı dərəcə üzrə: 367 manatdan 422 manatadək artım*

*7-ci dərəcə üzrə: 383 manatdan 441 manatadək artım*

*8-ci dərəcə üzrə: 398 manatdan 458 manatadək artım*

*9-cu dərəcə üzrə: 415 manatdan 478 manatadək artım*

*10-cu dərəcə üzrə: 432 manatdan 497 manatadək artım*

*11-ci dərəcə üzrə: 450 manatdan 518 manatadək artım*

*12-ci dərəcə üzrə: 468 manatdan 538 manatadək artım*

*13-cü dərəcə üzrə: 487 manatdan 560 manatadək artım*

*14-cü dərəcə üzrə: 508 manatdan 584 manatadək artım*

*15-ci dərəcə üzrə: 528 manatdan 607 manatadək artım*

*16-cı dərəcə üzrə: 549 manatdan 632 manatadək artım*

*17-ci dərəcə üzrə: 604 manatdan 694 manatadək artım*

*18-ci dərəcə üzrə: 725 manatdan 833 manatadək artım*

*19-cu dərəcə üzrə: 979 manatdan 1125 manatadək artım*

### Sosial siyasət uğurla icra olunur

■ **Mövzu ilə bağlı qəzetimizlə fikirlərini bölüşən millət vəkili Ceyhun Məmmədov deyib ki, son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə vətəndaşlarının rifah halının yaxşılaşdırılması məqsədilə ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir: “Bütün bu addımların atılmasının əsas məqsədi ölkə əhalisinin rifah halının daha da yaxşılaşıdırılmasıdır”.**

Millət vəkili qeyd edib ki, Azərbaycan dövləti hər zaman sosial yönümlü siyasət yürüdüb: “2023-cü ildə minimum əməkhaqqının 15% artırılaraq 345-ə, minimum pensiyanın 16,7 faiz artırılaraq 280, şəhid ailəsi üçün Prezident təqaüdünün aylıq məbləğinin 600 manata çatdırlması, ötən il 1500 şəhid ailəsinin evlə təmin olunması, müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləğinin 2023-cü il yanvarın 1-dən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 500, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə-400, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 330 manata qaldırlması, yaşa görə sosial müavinətin məbləğinin 220 manat müəyyən edilməsi, eləcə də digər kateqoriyadan olan insanların müavinətlərinin artırılması dövlətimizin sosial yönümlü siyasət həyata keçirdiyini bir daha təsdiq edir. Eyni zamanda, Prezident İlham Əliyevin sərəncamı ilə bir sıra dövlət qurumlarınının əməkdaşlarının maaşlarının artırılması dövlət qurumlarında çalışan ölkə vətəndaşlarına dövlətimizin qayğısının növbəti təzahürüdür.

Dünyada baş verən qiymət artımı fonunda bu addımların atılması xüsusi önəm daşıyır. Həmçinin, AMEA-nın əməkdaşlarının maaşlarının qaldırılması, dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğlərinin 2023-cü il yanvarın 1-dən artırılması dövlətimizin elm və təhsilimizə xüsusi qayğı ilə yanaşdığını bir daha göstərir. Onu da nəzərə almaq lazımdır ki, bütün bu işlər Qarabağ və Zəngəzurda həyata keçirilən abadlıq və quruculuq işləri, ordumuzun müdafiə qabiliyyətinin gücləndirilməsi fonunda həyata keçirilir. Bu onu göstərir ki, dövlətimiz heç bir sahəni diqqətdən kənarda qoymur”.

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən millət vəkili Rüfət Quliyev də bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin yeni Fərman və Sərəncamları ilə əməkhaqqı, müavinət və təqaüdlərin növbəti dəfə artırılması təmin olunur:** “Bu fakt bir daha təsdiqləyir ki, əhalinin sosial rifahının təminatının yüksəldilməsi Prezident İlham Əliyevin siyasətinin ana xəttini təşkil edir. Təbii ki, bu artımlar əhalinin sosial müdafiəsinin təmin olunmasında mühüm rol oynayacaq və inflyasiyanın qarşısını almağa imkan yaradacaq”. Deputat həmçinin vurğulayıb ki, inflyasiyanın kökündən həll olunması üçün daxili istehsal artırılmalıdır: “Biz hazırda tələbatımızın təxminən 55 faizini daxili ishehsal hesabına qarşılayırıq. Amma bu rəqəm 80-85 faizə qədər artarsa, inflyasiyanın kökündən həllinə böyük bir kömək olacaq”.

✍ **_Sevinc_**



## AMEA-da yeni şöbə yaradılıb

**Yanvarın 18-də keçirilən AMEA-nın Rəyasət Heyətinin iclasında Rəyasət Heyəti aparatının strukturunda daxili imkanlar hesabına “Elektron Akademiya” şöbəsinin yaradılması haqqında qərar qəbul edilib. Bu barədə hafta.az-a AMEA-dan bildirilib. Məsələ ilə əlaqədar çıxış edən AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli bildirib ki, Rəyasət Heyətinin yanvarın 16-da keçirilmiş iclasında aparatın strukturunda bir sıra şöbələrin adlarında dəyişiklik edilib, müasir tələblərə, yeni çağırışlara cavab verən addımlar atılıb.**

AMEA rəhbəri qeyd edib ki, müasir dövrdə dünyada rəqəmsal transformasiyalar, elektron resursların yaradılması prosesi geniş vüsət almaqdadır. Xüsusilə də, Dördüncü Sənaye İnqilabının çağırışları və süni intellekt texnologiyalarının tətbiqi kontekstində müasir dünyanın çağırışlarına müvafiq olaraq ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən birini məhz rəqəmsal transformasiyalar təşkil edir.

Akademik İsa Həbibbəyli bildirib ki, eyni zamanda hazırda ölkəmizdə elektron dövlət, elektron hökumət resurslarının formalaşdırılması, yeni idarəetmə texnologiyaları və sistemlərinin tətbiqi baxımından da mühüm işlər həyata keçirilməkdədir. AMEA rəhbəri bu baxımdan elektron imza, elektron sənəd dövriyyəsi, kargüzarlıq xidmətlərinin avtomatlaşdırılması kimi proseslərin də geniş tətbiq olunduğunu diqqətə çatdırıb.

İclasda AMEA-nın Rəyasət Heyətinin aparatında sənədlərin elektron dövriyyəsi sisteminin yaradılması, informasiya texnologiyalarından istifadənin imkanlarının elmdə və idarəetmədə genişləndirilməsi, kibertəhlükəsizliyinin təmin edilməsi və s. ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək məqsədilə AMEA-nın Rəyasət Heyəti aparatının strukturunda əlavə maliyyə vəsaiti və ştatlar tələb olunmadan daxili imkanlar hesabına “Elektron Akademiya” şöbəsinin yaradılması qərara alınıb.

## “Nar” 2023-cü ildə də sosial yönümlü peşə təlimlərinə davam edir

R




**“Nar” 2023-cü ildə də nitq və eşitmə məhdudiyyətli insanların həyat keyfiyyətinin yüksəldilməsi istiqamətindəki layihələrini davam etdirir.**

Belə ki, mobil operator artıq 4-cü dəfədir ki, “Təlim Məktəbi” layihəsi çərçivəsində bu gənclərin cəmiyyətə inteqrasiyasına dəstək olmaq üçün peşə təlimləri təşkil edir. Missiya çərçivəsində həmin gənclər üçün əmək bazarında daha çox tələbat olan manikür ustalığı təlimləri keçirilir.

Ümumilikdə 3 ay davam edəcək layihə müddətində nitq və eşitmə imkanları məhdud olan 15-30 yaş arasındakı 10 gənc iştirak edir. Təlimlərin sonunda isə iştirakçılara Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzi tərəfindən müvafiq sahə üzrə şəhadətnamə təqdim olunacaq. “Təlim məktəbi” layihəsinin tərəfdaşı “Karlara Dəstək” İctimai Birliyidir.

Qeyd edək ki, “Nar”ın “Təlim Məktəbi” layihəsi nüfuzlu beynəlxalq müsabiqə olan Eventiada IPRA Golden World Awards 2019 müsabiqəsində “KSM üzrə ən yaxşı layihə” nominasiyasında qalib olub.

Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Baş Plan əhalinin maraqlarına uyğun hazırlanmalıdır

***Dünya sivilizasiyasında ayrı-ayrı dövlətlərin, xalqların vizual siması, onun maddi-mədəni, ruhi kimliyini özündə əks etdirən tarixi abidələri, memarlıq sənəti inciləri qorunur, öyrənilir. Memarlıq sənəti bir millətin tarixini yazan, onu yaşadan, dünyaya tanıdan, bəşəri dəyərlərini ölçən, qoruyan çox böyük məhək daşıdır. Bu gün Azərbaycan memarlığı özünü necə təqdim edir? Dəfələrlə istilalara, istismara məruz qoyulan Azərbaycanın tarixi memarlıq abidələri öz haqqını, kimliyini necə qoruya bilib? Bu istiqamətdə hansı yeni nümunələr yaranır? Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü, tanınmış memar Elçin Əliyev bu barədə "Həftə içi"nə danışıb.***

## Müsahib

***- Qarabağ və digər işğal altında olan ərazilərimiz, kəndlər, şəhərlər iki ildir azad olunub və bərpa mərhələsindəyik. Bir çox şəhərlərin, eləcə də Şuşa, Laçın və digər ərazilərin Baş planları təsdiqlənib. Bu istiqamətdə görülən işləri dəyərləndirməyinizi istərdik...***

- İşğaldan azad edilmiş torpaqlarımız sürətlə bərpa edilir. Azərbaycan bu layihələri yalnız öz daxili imkanları hesabına və təkbaşına həyata keçirir. Şuşa, Ağdam, Füzuli, Cəbrayıl və Kəlbəcər şəhərlərinin Baş planları, artıq təsdiq edilib. Düşünürəm, bu şəhərlərin Baş Planı hazırlanarkən ərazinin tarixi özünəməxsusluğu, həmçinin mühitin müasir tələblərə, texnologiyalara əsasən həlli də nəzərə alınıb. Məsələn, Şuşanın ərazisi dağlıqdır, Ağdam ərazisinin relyefi, əsasən, düzənlik, qismən dağlıqdır, Cəbrayıl rayonu maili düzənlik ərazidə yerləşmişdir. Landşaft strukturlarının müxtəlifliyi tələb edir ki, memarlıq və planlaşdırma, texniki və iqtisadi işlərin həyata keçirilməsi ciddi şəkildə analiz edilərək optimal variantlar təqdim edilsin. Şəkildə, təqdimatda hər şey gözəl görünə bilər, amma bir çox faktorlar - inkişafın həcmi və xarakteri, avtomobil və dəmir yollarının mövcudluğu və ya yaxınlığı, eyni zamanda coğrafi, hidroqrafik və iqlim şəraiti, təbii ehtiyatların mövcudluğu, sənaye, yaxud kənd təsərrüfatının istehsal bazası, təyinatlar, onun işçi heyəti və regionun gələcəkdə demoqrafik göstəriciləri, enerji, nəqliyyat, rabitə nə qədər nəzərə alınıb? Bu amillər inkişafı qabaqcadan müəyyən edir..

***- Bakının rayonlarının birləşdirilməsi məsələsi yenidən gündəmdədir. Yeni ildə hansı rayonların birləşdirilməsi nəzərdə tutulur və yaxud ötən ildə bu yöndə hansı işlər görülüb?***

- Bakı şəhərinin inzibati ərazi bölgüsünə dəyişiklik edilməsi ilə bağlı məlumatlar yayılmaqdadır, bütün bunlar Baş Planla əlaqəli ola bilər, amma bildiyimiz kimi, hələ də Baş Planın təqdiqi barədə heç bir məlumat yoxdur. Əslində, Baş Planın mövcudluğuna belə skeptik yanaşıram, çünki bu, bir layihə sənədidir və onun əsasında ərazilərin planlaşdırılması, tikintisi, yenidənqurulması və digər şəhərsalma növləri həyata keçirilir. Biz nə görürük?! Bakı şəhərində kim harada istəsə, nə gəldi tikir. Şəhərin inkişafının, yəni mövcud şəhərə münasibətdə - onun yenidənqurulması və gələcək inkişafının, yaxud hər hansı digər yaşayış məntəqəsinin elmi əsaslarla uzunmüddətli planı olmalıdır. Yenə təkrar edirəm: elmi əsaslarla. Maraqlanın: hansı elmi-tədqiqat institutu bu sahədə araşdırmalar aparıb? Əminliklə deyə bilərəm ki, heç biri. Baş Plan yaşayan əhalinin maraqlarına uyğun və nəzərə alınmaqla işlənib hazırlanmalıdır, yaşayış sahələrinin və obyektlərin yerləşdirilməsi ilə bağlı əsaslı qərarlar, nəqliyyat xidmətləri, mühəndis avadanlıqları və abadlıq, eləcə də ərazilərin işlənməsi qaydası düzgün müəyyən edilməlidir.

Mənim sevimli şəhərim bu gün "kollaps" vəziyyətindədir. Tıxac problemləri, yağış, qar yağanda şəhərin "iflic" olması, şəhərin mərkəzi hissələrinin həddindən artıq yüklənməsi və daha nələr, nələr. Axı sonsuz sayda nazirliklər, agentliklər, qurumlar yaradılıb. Məsələn, "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" və ya onun tabeliyində olan "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi" avtomobil nəqliyyatı sahəsində tənzimləməni, tixac problemlərinin həllini niyə operativ yerinə yetrimirlər? Şəhər İcra Hakimiyyəti, siz hara baxırsınız? Şəhərin tarixi binalarının konstruktiv quruluşlarına müdaxilə edilir, həmin binların tarixi simaları dəyişdirilir. Yasamal rayonu ərazisində "Qış Parkı" deyilən ərazidə yeraltı keçidlərin eskalatorları işləmir, natəmizlik baş alıb gedir. Bəs rayon icra nümayəndələri nə ilə məşğuldur? Cavabsız qalan sonsuz suallar var. Buna da cənab Prezident müdaxilə etməlidir?! Onda sizləri nə üçün vəzifəyə təyin ediblər?



**Elçin Əliyev,**
Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin üzvü, tanınmış memar

***- Bakının tarixi mərkəzində yeni Mərkəzi Rayonun yaradılması ilə bağlı bir təklif olmuşdu. O Mərkəzin layihələndirilməsi, icrası nə yerdə qalıb?! Bu istiqamətdə hansı işlər görülür?***

- Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin mətbuata açıqlamasına əsasən, Bakı şəhərinin Mərkəzi Bakı, Regional Mərkəz və Alt Mərkəzə bölünməsi nəzərdə tutulub. Bakı şəhərinin Baş Planı təsdiq olunmayınca nəsə demək mümkün deyil. Urbanizasiya prosesində - müasir şəhər quruculuğu təcrübəsində planlaşdırmanın mövcud vəziyyəti və dəyərli memarlıq abidələrinin mövcudluğu nəzərə alınmadan işlərin aparılması hallarına rast gəlinir, əsrlərboyu mövcud olan quruluş bəzən əsassız olaraq dəyişdirilir. Şəhərin mərkəzi və tarixi hissəsinin qorunub-saxlanması fövqəladə əhəmiyyət kəsb edən vəzifədir və memarlıq abidələrindən müasir tikililərlə ahəngdar istifadəni tələb edir. Öz orijinallığını qorumaq, keçmişin mütərəqqi şəhərsalma mədəniyyətini müasir tələblərlə üzvi və yaradıcı şəkildə inkişaf etdirmək yalnız memarlıq irsinin hərtərəfli və dərindən öyrənilməsi ilə həll oluna bilən vəzifədir.

> *Rəsmi memarlıq qurumlarında çalışan rəhbər-memarlar bu sifarişləri öz şəxsi şirkətlərinə ötürürlər*

***- Ümumiyyətlə, paytaxtın memarlıq mənzərəsində hansı dəyişilmələr var? Tarixi-memarlıq abidəsi olan İçərişəhərin mövcud vəziyyəti necədir?***

- İçərişəhər Azərbaycanda yüzillər bundanəvvəlki şəhərsalma sənətinin əzəmətli nümunəsidir. İllərəvvəl İçərişəhərə daxil olanda insanın ruhu dincəlir, sanki keçmişə səyahət edirdin, amma işbazlar nə etdilər? Hər addımda mühitə uyğun olmayan yerlərdə quraşdırılmış obyektlər - restoran və kafelər, nəzarətsiz yeni tikililər yarandı, İçərişəhərin şəhərsalma-memarlıq bütövlüyü pozuldu.

Hə, bəlkə də yeni rəhbərlik mövcud vəziyyəti düzəltməyə çalışır, amma bu vəziyyəti yaradanlar niyə buna görə məsuliyyət daşımırlar? Eləcə də bu vəziyyət digər memarlıq abidələrinə də aiddir. Paytaxtın memarlıq görünüşü dəyişə bilər, bu, təbii prosesdir, amma unikal memarlıq nümunələrinə toxunmaq olmaz. Onlar ya professional şəkildə bərpa, ya da konservasiya edilməlidir. Zaman dəyişir, köhnənin yerinə təzəsi gəlir. Mən yeni memarlığın əleyhinə deyiləm, əksinə, istəyirəm ki, bu iş keyfiyyətli olsun. Məşhur italyan memarı H.Sofsata deyir ki, hər bir memarlıq nümunəsi yerləşdiyi ərazinin, küçənin tarixini göstərməli, əks etdirməlidir...

***- Azərbaycan memarlığında milli kolorit, azərbaycançılıq ideyası, ruhu necə qorunur? Azərbaycanın memarlıq simvolu hansı abidədir və yeni yaranan abidələr nə dərəcədə Azərbaycanın ruhunu daşıyır?***

- XX əsrin əvvəllərində Bakı milyonçularının məşhur binalarını əcnəbi memarlar layihələndiriblər, bu gün o binalar bizim milli dəyərimizdir. Həmin dövrdə Bakıda "neoqotika", "neobarokko", "klassisizm", "ampir", "modern" üslublarında binalar inşa olunmağa başlandı və biz deyə bilmərik ki, onlarda milli kolorit yoxdur. Ploşko, Skipinski və başqa memarlar işlərinin peşəkarı olaraq, bu şəhəri sevərək, milli mühitə uyğun işləyiblər. Onların binalarına nəzər salanda görürük ki, Avropa memarlığı üslubunda olan bir layihədir, amma orada milli kolorit və milli elementlər vəhdət təşkil edir.

O ki qaldı Azərbaycanda simvola çevrilən abidələrə, burada hansısa bir abidənin adını çəkmək düzgün olmazdı. Azərbaycanın hər regionunun bir simvolu var və onların memarlıq həllərində həm oxşarlıq, həm də fərqlilik var. Azərbaycan ərazisi ümumdünya əhəmiyyətli tarixi abidələr və unikal memarlıq nümunələri ilə zəngindir - Naxçıvandakı Mömünə Xatun (1186), Qarabağlar (1162) abidələri, Bərdə türbələri (1322), Abşeronun müdafiə tikililəri, Bakıdakı Qız qalası, Şirvanşahlar sarayı (XV əsr), Alban dövrünə aid məbədlər, Şəki xan sarayı (XVIII əsr), Şuşa şəhərinin abidələri (XVIII əsr) və s., bunların hər biri simvoldur.

***- Azərbaycanın digər rayonlarında tarixi-mədəni abidələrin qorunması istiqamətində atılan addımlar necə ifadə olunur?***

- Fikrimcə, tarixi abidələrin yerləşdiyi ərazilər qoruq elan edilməlidir və bu tarix-mədəniyyət qoruqlarının yaradılması Azərbaycanda milli mədəniyyət abidələrinin, tarixi abidələrimizin qorunması istiqamətində əvəzsiz olacaq. Milli varlığımızın bariz nümunəsi olan abidələrin qorunması və bərpası üzrə ciddi işlər aparılmalıdır. Onlar dəqiq siyahıya alınmalı, bərpa və ya konservasiya layihələri işlənməlidir. Bu, böyük bir proqram olmalıdır və mütləq ictimaiyyəti məlumatlandırmaq lazımdır. Bu layihələri müasir, mütərəqqi texnologiyaların tətbiqi, amma mütləq şəkildə yerli memarların iştirakı ilə həyata keçirtmək lazımdır.

***- Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı Qayıdış Konsepsiyası istiqamətində çağırışı ölkə ictimaiyyəti tərəfindən qürurla qarşılandı. Tarixi Azərbaycan torpaqlarımızda qalmış abidələrimizin araşdırılması, üzə çıxarılması və bərpası ilə bağlı görülə biləcək işlərlə xüsusi diqqət çəkir. Qərbi Azərbaycandakı tarixi abidələrimiz ilə bağlı Memarlar İttifaqı tərəfindən hansı pilot layihələr, maketlər həyata keçirilə bilər?***

- Qərbi Azərbaycan ərazisində xalqımıza məxsus zəngin mədəni irs mövcuddur. Hər şey təbliğatdan asılıdır. Ermənistan ərazisində qalan böyük mədəni irsimiz mənfur qonşularımız tərəfindən məhv edilib və biz bu vandalizm siyasətini ifşa etməliyik. Rəsmi məlumatlara görə, XX əsrin əvvəllərində Qərbi Azərbaycan ərazisində hər biri bir memarlıq əsəri olan 310 məscid mövcud olmuşdur - 1912-ci ilə qədər İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33, Zəngəzur qəzasında 35 məscid fəaliyyət göstərmişdir. Onların aqibəti ilə bağlı nə bilirik? Bununla bağlı beynəlxalq qurumlara müraciətlər hazırlanmalıdır, həmin ərazilərin tarixi torpaqlarımız olduğunu yalnız bu cür sübut edə bilərik. Qafqaz Albaniyası dövrünə aid abidələrimizi ermənilər özününküləşdiriblər, Xan sarayı və möhtəşəm Sərdar (Abbas Mirzə) məscidi məhv edilib. Ermənistan ərazisində azərbaycanlılara məxsus tarixi-memarlıq abidəsi olan İrəvan şəhərindəki Göy Məscid 1766-cı ildə İrəvan xanı Hüseynəli xanın əmri ilə tikilmiş və Azərbaycan memarlıq nümunələrindən biridir. 1995-2006-cı illərdə məscid İran tikinti şirkətlərinin köməyi ilə bərpa olunub və İranın Ermənistandakı mədəniyyət mərkəzlərindən birinə çevrilib. Ermənilər buranı "fars məscidi" kimi qələmə verirlər. Buna necə susa bilərik? Əsla susmamalıyıq!

O ki qaldı Azərbaycan Memarlar ittifqının bu istiqamətdə işlərinə, yəqin, bir iş görsələr hamımız məlumatlı olardıq. Demək olar ki, bütün potensial, bacarıqlı memarlar İttifaqdan uzaqlaşıblar, daha düzgün desək, uzaqlaşdırılıblar və təbii ki, bu halda hansısa pilot layihədən söz gedə bilməz.

***- Bizim Azərbaycan memarlarının dünyanın şəhərlərinin dizaynında rolu nə qədərdir və daha çox harada yer ala bilirlər?***

- Azərbaycan memarları çox istedadlıdırlar. Bir zamanlar Azərbaycan memarları xaricdən kifayət qədər sifariş alırdılar və həmin binalar öz fərqliliyinə, gözəlliyinə görə seçilirdilər. Bu gün bu cür müraciətlərin azalmasının səbəbi yenə rəsmi qurumlardadı - artıq dəfələrlə qeyd etmişəm ki, rəsmi memarlıq qurumlarında çalışan rəhbər-memarlar bu sifarişləri öz şəxsi şirkətlərinə ötürürlər. Görünür, o qədər keyfiyyətsiz işlər təqdim edirlər ki, səs-sorağı gəlmir.

*✍ Tahirə Qafarlı*

## HƏFTƏ REYTİNQ

### Həftənin İDDİASI



Mətbuatda Azərbaycan Baş nazirinin 1-ci müavini Yaqub Eyyubovun oğlunun adına Latviyanın paytaxtı Riqa şəhərindəki bankda yerləşdirdiyi 1 milyard dolların dondurulması barədə xəbər yayılıb. Gunun-sesi.info saytı Yaqub Eyyubovu taparaq ona zəng edib. Dövlət rəsmisi isə jurnalistin sualına hətta tamamlanmayan cümlə ilə cavab verib və dəstəyi yerə qoyub: "Nə pul, nə 1 milyard Kim deyir bunu?".

### Həftənin İSTEFASI



Ukrayna Prezidentinin Ofisinin müşaviri Aleksey Arestoviç istefa verib. "İstefa ərizəsi yazmışam. Sivil davranış nümunəsi göstərmək istəyirəm: prinsipial səhvdir, bu isə istefa deməkdir", - deyə Arestoviç qeyd edib. Arestoviç yanvarın 14-ü Dnepr şəhərində 9 mərtəbəli yaşayış binasına Rusiya ordusu tərəfindən raket zərbəsinin endirilməsi ilə bağlı yanlış məlumat verdiyi üçün tənqid olunub. Belə ki, hadisədən sonra Arestoviç bildirib ki, Ukraynanın hava hücumundan müdafiə vasitələri Rusiya tərəfinin atdığı raketi vurub və bundan sonra raket Dneprdə binaya düşüb.

### Həftənin MƏHKUMU



İranlı rejissor Müjgan İlanluya 10 il həbs və 74 şallaq cəzası verilib. O, milli təhlükəsizliyə təhdid yaratmaq, nizam-intizam əleyhinə gizli və aşkar fəaliyyət göstərmək və ictimai asayişi pozmaq ittihamı ilə həbs olunub.

Həmçinin, ölkədən çıxışına qadağa qoyulan İlanlunun şəxsi kompüteri və telefonunun da məhkəmə tərəfindən müsadirə edildiyi bildirilir.

### Həftənin SUALI



"Forumda iştirak edən həmkarlarıma Ukrayna Prezidentinin düstur məktublarını çatdıracağam. Sülhü qaytaran birlikdir. Əgər dünya Ukrayna şəhərlərinin yandırılmasını dayandıra bilmirsə, iqlim neytrallığına necə nail olmağı gözləyir?". Yelena Zelenskaya bunu Davos şəhərində keçirilən Dünya İqtisadi Forumunda (WEF) çıxışı zamanı deyib.

### Həftənin İMTİNASI



Son vaxtlar trend olan "Tufan var" mahnısının ifaçısı Ceyhun Səmədov müğənni Manaf Ağayevlə efirə çıxmaqdan imtina edib. Bu barədə "Xəzər axşamı" verilişinin aparıcısı Mətanət Əliverdiyeva efirdə məlumat verib. Onun sözlərinə görə, Ceyhun efirdə qonaq olan Manaf Ağayev və Ülviyyə Namazova ilə konseptlərinin uyğun olmadığını səbəb gətirib. M. Ağayev isə "Allah ruzisini versin. Amma o sözü deyibsə, Allah onun ruzisini verməyəcək. Mənə zəng etsin, görüm niyə gəlməyib? Mən onun yaşı qədər sənətdəyəm, heç soruşmamışam ki, efirdə qonaq kimdir?" - deyə cavab verib.

### Həftənin DERBİSİ



İspaniya superkubokunun qalibi müəyyənləşib. Həlledici oyunda "Real" və "Barselona" komandaları üz-üzə gəliblər. Kataloniya təmsilçisi bu oyunda inamlı hesabla qalib gəlib. Nəticədə sözügedən komanda tarixində 14-cü dəfə bu titula sahib çıxıb.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**İspaniyanın San Anton kilsəsində xeyir-dua verildikdən sonra it müqəddəs suyu yalayır**

## Azərbaycanın hərbi sahədə yeni hədəfləri

**Telman Qasımov,**
hərbi ekspert

44 günlük müharibədən sonra Azərbaycan hərbi sahədə qarşısına qoyduğu xüsusi planlarının həyata keçirilməsi istiqamətində çox böyük işlər görür. ▸▸ Səh. 4

## STATİSTİKA



**■ Ötən il 1 ton 383 kiloqram 507 qram narkotik vasitənin, 36 milyon 592 min 485 manat dəyərində qaçaqmalın dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısı alınıb, 24 ton 683 kq narkotik xassəli bitki məhv edilib.**

Dövlət sərhədini pozduqlarına görə 559 nəfər, sərhəd rejimini pozduqlarına görə 9827, axtarışda olan 2843, saxta sənədlərlə 319, özgəsinə məxsus sənədlə 6, gizli şəkildə sərhəd nəzarəti məntəqələrindən keçməyə cəhd edərkən 1 nəfər saxlanılıb.



▸▸ Səh. 7

## Yeni sosial dəstək paketi